NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

Novruz bolluq, bərəkət rəmzi sayılır. Bu səbəbdən süfrəmizə hər cür nazneməti düzməyə çalışırıq. Lakin bu gün bazardakı qiymətlər süfrələrin də nizamına təsir edir. Süfrəsini bolluca nemətlərlə bəzəyib bayramı ürəyi istədiyi kimi keçirmək hər ailəyə nəsib olmur.

Novruzu adına musiqilər bəstələnən, xonçalara bəzək vuran şəkərbura, paxlava, qoğalsız təsəvvür etmək olmaz. Varlı, kasıb - fərq etməz, hər ailənin bayram süfrəsində səməni nə qədər önəmlidirsə, bu üç şirniyyat bir o qədər vacibdir. Bəs görək, bunları bişirmək neçəyə başa gəlir?

SƏHİFƏ 10-da



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

16 MART ŞƏNBƏ 2024 I 10 (4161) Qiyməti - 40 qəpik www.kaspi.az



ETİBARLI VƏ DAVAMLI TƏRƏFDAŞLAR

Azərbaycan, Türkiyə və Gürcüstanın xarici işlər nazirlərinin sonuncu görüşü 2019-cu ildə baş tutub. Beş illik fasilədən sonra martın 15-də tərəflər Bakıda yenidən bir araya gəlib və Bakı bəyannaməsini imzalayıblar.

SƏHİFƏ 2-də



ERMƏNİSTAN SÜRƏTLƏ BOŞALIR

Ölkəni tərk edənlərin sayı son illər elə bir həddə çatıb ki, artıq söhbət miqrasiyadan yox, depopulyasiyadan gedir. Erməni əhali regionlarda yaşamaqdan bezərək, çıxış yolu kimi xaricdə yaşamağa üstünlük verir.

SƏHİFƏ 5-də



İNDİ ONUN SƏSİNDƏN YOXDUR...


Martın 22-də görkəmli xanəndə Rübabə Muradovanın doğum günüdür. İndi onunla həmyaşıd olan, səhnəni bölüşən, konsertlərini müşayiət edən sənət yoldaşları, səhnədə ifasını canlı izləyən tamaşaçılar çox deyil.

SƏHİFƏ 15-də

BAKI DÜNYAYA NÜMUNƏ OLA BİLƏCƏK TƏCRÜBƏ TƏKLİF EDİR

PARÇALANMIŞ DÜNYANI BİRLƏŞDİRƏN FORUM

Martın 14-də başlayan XI Qlobal Bakı Forumunda 68 ölkədən 400-dən çox qonaq iştirak edir. Qonaqlar arasında 40-dan çox hazırkı və sabiq dövlət və hökumət başçıları var.



ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏRƏ TUTARLI CAVAB

XI Qlobal Bakı Forumu həm də ölkəmizə qarşı bir sıra qüvvələrin anti-Azərbaycan kampaniyasını tam sürətlə davam etdirdiyi bir vaxta təsadüf etdi. Forumdan bir gün öncə Cənubi Qafqazda münaqişənin yenidən alovlandırılmasının təkanverici qüvvəsi rolunda çıxış edən Avropa Parlamenti yenidən Bakını hədəfə alaraq qətnamə qəbul etdi.

FRANSANIN İKİÜZLÜ SİYASƏTİNİN İFŞASI

Prezident İlham Əliyevin çıxışı zamanı dünyanın diqqətinin Bakıya yönəldiyi bir vaxtda Fransanın Azərbaycanla bağlı anlaşılmaz və xəstə təxəyyülün məhsulu olan siyasətini ifşa etməsi xüsusilə önəmlidir. Dövlət başçısı antiterror əməliyyatlarından sonra göstərilən beynəlxalq reaksiyaya diqqət çəkib.

SƏHİFƏ 4-də

“ÖLKƏMİZDƏ KEYFİYYƏTLİ STARTAPLAR ÇATIŞMIR”

“Gənclər üçün Prezident mükafatı”na layiq görülən Tariyel Ağazadə: “Düşünürəm ki, hər şey insanın özündən asılıdır. Hər bir insan atacağı addıma və verdiyi qərarlara görə nəticə əldə edir. Hər uğurlu insanın hədəfləri var. Məqsədinə çatmaq üçün ilk öncə kiçik hədəflərin olmalıdır”.



SƏHİFƏ 8-9-da



5 171 AİLƏNİN KÖÇÜRÜLMƏSİ PLANLAŞDIRILIR

Keçən ilin sonunadək işğaldan azad olunmuş ərazilərə ümumilikdə 1 186 ailə köçürülüb. 2026-cı ilədək 34 500 ailənin də (140 min nəfərin) doğma torpaqlarına qayıdışı təmin olunmalıdır.

SƏHİFƏ 13-də



MAKRON TÜRK DÖVLƏTLƏRİNƏ MÖHTAC QALACAQ

Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas marşrut hazırda Azərbaycanın üzərindən keçən Orta Dəhlizdir. Makron Mərkəzi Asiyadan uran tədarük edəcəyi təqdirdə yenə də Azərbaycana möhtac olacaq.

SƏHİFƏ 6-da



BUNU BİR DAHA EDİN!

“Qarabağ” UEFA Avropa Liqasının 1/8 finalında “Bayer”ə məğlub olaraq mübarizəni dayandırdı. Komandamız bu dəfə də layiqli oyun göstərdi. Almanlar ancaq oyuna əlavə edilmiş dəqiqələrdə qələbəni təmin edə bildilər.

SƏHİFƏ 16-da



Orta Dəhlizin iki əsas oyunçusu

SƏHİFƏ 3-də



Füzuliyə növbəti köç reallaşıb

SƏHİFƏ 2-də



Tələbat artır, qiymət yüksəlir

SƏHİFƏ 14-də



İnvestorları düşündürən bahalaşma

SƏHİFƏ 7-də



Valideynin itirmək təhlükəsi

SƏHİFƏ 11-də

Kaspi ÜÇ ƏSRİN QƏZETİ



İlham Əliyev Tzipi Livnini qəbul edib

Prezident İlham Əliyev martın 15-də İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul edib.

Görüşdə XI Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunulub, bu tədbirdə xeyli sayda qonağın iştirak etdiyi və təmsil olunan beynəlxalq institutların sayının artmasının önəmi vurğulanıb. Bu Forumun beynəlxalq əməkdaşlığın möhkəmlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə edilib.

Tzipi Livninin Qlobal Bakı Forumunda ənənəvi olaraq iştirak etdiyi qeyd olunub.



SOCAR - "Samruk Kazyna" əməkdaşlığı müzakirə edilib

Azərbaycan İnvestisiya Holdinqi (AİH), Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Qazaxıstanın "Samruk Kazyna" Səhmdar Cəmiyyəti arasında görüş keçirilib.

"Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, görüş Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov, SOCAR prezidenti Rövşən Nəcəf və "Samruk Kazyna"nın idarə heyətinin sədri Nurlan Jakupovun rəhbərlik etdiyi nümayəndə heyəti arasında baş tutub.

Görüşdə martın 11-də Azərbaycan Prezidenti İlham Əliyevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə AİH və "Samruk Kazyna" arasında imzalanmış strateji tərəfdaşlıq Sazişindən irəli gələn məsələlər və atılacaq növbəti birgə addımlar müzakirə edilib.



Füzuliyə növbəti köç reallaşıb

Füzuliyə yeni köçürülən ailələrə mənzillərinin açarlarının təqdim olunması mərasimi keçirilib.

"Report" xəbər verir ki, tədbirdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, həmçinin Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri iştirak ediblər.

Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar. Qeyd edək ki, bu mərhələdə Füzuli şəhərinə daha 35 ailə - 153 nəfər köçürülüb. Bununla da Füzuli şəhərində 562 ailə, 2122 nəfərin daimi məskunlaşması təmin edilib.

ETİBARLI VƏ DAVAMLI TƏRƏFDAŞLAR



Azərbaycan, Türkiyə və Gürcüstanın xarici işlər nazirlərinin sonuncu görüşü 2019-cu ildə baş tutub. Beş illik fasilədən sonra tərəflər yenidən bir araya gəlib və Bakı bəyannaməsini imzalayıblar.

Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin növbəti üçtərəfli görüşü keçirilib. Xarici işlər naziri Ceyhun Bayramov Bakıda türkiyəli və gürcüstanlı həmkarları Hakan Fidan və İlya Darçiaşvili ilə keçirilən görüş zamanı bildirib ki, üç ölkə kritik, etibarlı və davamlı tərəfdaşlar olaraq əsl körpü quruculuğu kimi çıxış edir.

REGİONAL ƏMƏKDAŞLIĞA CİDDİ TƏLƏBAT VAR

C.Bayramovun sözlərinə görə, üçtərəfli görüş təsadüfi deyil və vacib təşəbbüsdür: "2019-cu ildə baş tutan görüşdən artıq 5 il keçir. Son üçtərəfli görüşdən sonra dünya həm qlobal, həm də regional miqyasda dəyişib. Bizim görüşümüzdən sonra son beş il ərzində beynəlxalq arenada ciddi hadisələr baş verdi. Artan təzyiq fonunda regional əməkdaşlığa ciddi tələbat var. Bu görüş hər üç ölkəyə qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıqdan faydalanmağa imkan verir. Eyni zamanda, əməkdaşlığımız regional və qlobal təhlükəsizlik və sabitliyə töhfə vermək baxımından da son dərəcə dəyərlidir".

BAKI SÜLH SAZİŞİNİN TEZLİKLƏ BAĞLANMASINI GÖZLƏYİR

Nazir bildirib ki, Azərbaycan ardıcıl olaraq siyasi iradə nümayiş etdirib və intensiv şəkildə birbaşa danışıqları dəstəkləyib, həmçinin Ermənistanla sülh sazişinin tezliklə imzalanmasını gözləyir. Onun sözlərinə görə, Azərbaycan regionda sülhün bərpasına sadiq qalır: "Son vaxtlar iki ölkə liderləri səviyyəsində, eləcə də Azərbaycan və Ermənistanın xarici işlər nazirləri səviyyəsində görüşlər keçirilib. Bu görüşlər sülh sazişinin irəliləməsi məsələsində zəmin yaradır və iki ölkənin siyasi məsələlərinə yanaşmanın sadəliyini təmin edir". Nazir vurğulayıb ki, Azərbaycan beynəlxalq aktorların ədalətli və qərəzsiz şəkildə birbaşa ikitərəfli danışıqları dəstəkləyəcəyinə ümid edir.

BAKI BƏYANNAMƏSİ İMZALANIB

C.Bayramov üçtərəfli görüşdən sonra keçirilən mətbuat konfransında qeyd edib ki, Azərbaycan, Türkiyə və Gürcüstan arasında Bakı bəyannaməsi imzalanıb. O vurğulayıb ki, hər üç ölkənin beynəlxalq platformalar çərçivəsində bir-birini dəstəkləməsi siyasi dialoqa töhfə verən amildir: "Azərbaycan, Türkiyə və Gürcüstan arasında olan əməkdaşlıq nümunəvi münasibətlərdir. Bu gün (dünən) imzalanan Bakı bəyannaməsi əlaqələrin inkişafına daha da töhfə verəcək".

ZƏFƏR BÖLGƏDƏ YENİ REALLIQLAR YARADIB

Türkiyənin xarici işlər naziri Hakan Fidan qeyd edib ki, Cənubi Qafqazı sülh, rifah və sabitlik mərkəzinə çevirmək imkanı var: "Tbilisidəki son üçtərəfli görüşdən sonra istər regionda, istərsə də qlobal miqyasda dəhşətli hadisələrə şahidlik edilib. Bölgədə müsbət hadisələr də baş verdi. Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, Gürcüstan Avropa İttifaqına namizəd statusu qazandı".

Nazir əlavə edib ki, Bakı-Tbilisi-Qars dəmiryolu tam potensialı ilə fəaliyyət göstərməlidir. H.Fidan Qarabağ zəfərinin doğurduğu reallıqlardan da söz açıb: "Zəfər bölgədə yeni reallıqlar yaradıb. Artıq regionda qalıcı sülhü təmin etmək mümkün görünür".

H.Fidan Zəngəzur dəhlizinin açılmasına dəstək gözlədiklərini bildirib. O, Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyini yüksək qiymətləndirib və bu münasibətlə təbriklərini çatdırıb.



REGİONAL ƏMƏKDAŞLIQ ÜÇÜN SƏMƏRƏLİ MEXANİZM

"Azərbaycan, Türkiyə və Gürcüstan xarici işlər nazirlərinin görüşü regional əməkdaşlığın səmərəli mexanizmlərindən birinə çevrilib", - bu fikirləri isə Gürcüstanın xarici işlər naziri İlya Darçiaşvili deyib. O əlavə edib ki, görüşdə regional imkanlar və çağırışlar müzakirə edilib. Nazirin sözlərinə görə, Gürcüstan Cənubi Qafqazda sülhlə bağlı irəliləyişə nail olunmasında maraqlıdır və bu istiqamətdə dialoqa çağırır: "Ümid edirik ki, Azərbaycan və Ermənistan tezliklə sülh sazişi imzalayacaq. Bundan başqa, Gürcüstan Yaxın Şərqdə sülhün əldə olunmasının da tərəfdarıdır".

İ.Darçiaşvili deyib ki, tərəflər xarici işlər nazirlərinin növbəti görüşünün Türkiyədə keçirilməsi barədə razılığa gəliblər.

ORTA DƏHLİZİN İKİ ƏSAS OYUNÇUSU



Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin səfərindən sonra Azərbaycanla Qazaxıstanın Orta Dəhliz marşrutundakı infrastruktura əlavə sərmayələr yatıracağı gözlənilməndir. Tokayevin Azərbaycan Prezidenti İlham Əliyevlə bağlı qapılar arxasında apardığı müzakirələr Bakı ilə Astananın regional və qlobal dinamikadakı rolu kontekstində qiymətləndirilir.

AQŞİN KƏRİMOV

Bu həftə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri iki ölkə arasındakı əlaqələrin geostrateji əhəmiyyəti baxımından çox vacib idi.

Tokayevin Azərbaycan Prezidenti İlham Əliyevlə bağlı qapılar arxasında apardığı müzakirələr Bakı ilə Astananın regional və qlobal dinamikadakı rolu kontekstində qiymətləndirilir.

Liderlərin müzakirələri nəqliyyat-logistika sahəsindəki qarşılıqlı maraqlardan, Trans-Xəzər nəqliyyat dəhlizinin (Orta Dəhliz) əhəmiyyətindən tutmuş, Türk Dövlətləri Təşkilatının (TDT) qüdrətli platforma olmasına qədər strateji məsələləri əhatə edir.

FÜZULİ VƏ ŞUŞAYA ANLAMLI SƏFƏR

Hər bir halda, İlham Əliyevlə Kasım-Jomart Tokayevin danışıqları geosiyasi mühitdə iki dövlətin əhəmiyyətini vurğulayır və TDT-nin regional və bəşəri tendensiyalardakı rolunu diqqət mərkəzinə gətirir.

Liderlər Bakıda xoş atmosferdə görüşlər keçirdikdən bir gün sonra, martın 12-də Füzuliyə və Şuşaya səfər etdilər. İşğaldan azad edilmiş ərazilərə səfər Azərbaycanın Cənubi Qafqazda yeni reallıqlar yaradıb, bunu TDT sərhədləri boyunca geniş bucağa daşımasının fonunda diqqət çəkir.

Çünki Azərbaycanın ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etməsi ilə Zəngəzur dəhlizinin əhəmiyyəti bir neçə dəfə artıb və bu, TDT-nin misilsiz inkişafı üçün təşviq layihəsi kimi böyüyür. Bu mənada Tokayevin Füzuli və Şuşaya səfəri geostrateji əhəmiyyətin işığında böyük tablo yaradır və Bakı ilə Astananın təmsilçilik dairəsini genişlədəcəyinə işarə edir. Belə dönüş nöqtəsi Azərbaycanın qazandığı mühüm qələbələrin səmərəli regional əməkdaşlığı təşviq etməsini, Qarabağa və Şərqi Zəngəzura əhəmiyyətli diqqət göstərilməsini şərtləndirir.

TDT SÜRƏTLƏ QÜDRƏTİNİ ARTIRIR

Beləliklə, Azərbaycan və Qazaxıstan ikitərəfli formatda və TDT çərçivəsindəki çoxtərəfli əməkdaşlıq modelini qüvvətləndirir. Söz yox ki, belə geostrateji həcm TDT-ni dünyada getdikcə artan beynəlxalq böhranları aradan qaldırmağa, effektiv və qalıcı həll yolları təklif etməyə qadir gücə çevirir. Deməli, TDT-nin regional münaqişələrə, kollektiv təhlükəsizliyə yanaşması Tokayevin Azərbaycana səfərinin müşayiətində yeni məqsədləri aydınlaşdırır.


Bəli, TDT və təşkilatdakı Azərbaycanla Qazaxıstanın Çindən Avropaya uzanan nəqliyyat dəhlizindəki tranzit əhəmiyyəti hibrid müharibələrə qarşı həlledici rol oynayır.

Tokayevin Bakıya səfəri eyni zamanda Azərbaycanın xarici siyasətindəki TDT vektorunun geosiyasi güc mübarizəsindəki balanslaşdırıcı rolunu vurğulamağa imkan verir. Qazaxıstan da TDT faktorundan özünün xarici siyasətində manevr kimi yararlanır. Beləliklə, Azərbaycanla Qazaxıstan TDT amilini qarşılıqlı alternativ giriş sahəsi kimi stimullaşdırırlar. Yəni Azərbaycanla Qazaxıstan biri Cənubi Qafqazın, digəri isə Mərkəzi Asiyanın "döyünən ürəyi" qismində yeni arenalara çıxış imkanı qazanırlar. Bakı-Astana əlaqələrinin dinamikası Azərbaycanın Mərkəzi Asiyada, Qazaxıstanın isə Cənubi Qafqazdakı oyunçuluq qabiliyyətini yüksəldir.

ƏLAVƏ TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ AXTARIŞINDA

Ancaq hər iki ölkə həm ikitərəfli qaydada, həm də çoxtərəfli formatda əlavə təhlükəsizlik tədbirləri axtarmağın zəruriliyini də anlayır. Çünki TDT-nin iqtisadi güc kimi mərkəzləşməsi onun hərbi ittifaqının yaradılmasını vacib edir ki, bu da qlobal münaqişələrin alovunda fərqli mənzərə vəd edə bilər. Ona görə də İlham Əliyevlə Kasım-Jomart Tokayevin danışıqlarında TDT çərçivəsində hərbi əməkdaşlığın perspektiv effektiv müdafiə mexanizmi kimi müzakirə edilməsi istisna olunmur. Çünki hər iki lider yaxşı bilir ki, Qərbdən Şərqə qlobal ticarət keçidində TDT-nin rolu ona qarşı qısqanclıqlar yarada bilər. Bu mənada mürəkkəb regional və planetar geosiyasi vəziyyət hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığı vacib edir.





TİCARİ ƏLAQƏLƏRİN İNKİŞAFI ÜÇÜN YAXŞI PERSPEKTİVLƏR VAR

Tokayevin Azərbaycan proqramı həm də iqtisadi-ticari əlaqələrin inkişaf dinamikasına nəzər salmağı labüdləşdirir. Prezident İlham Əliyev mətbuata birgə bəyanat zamanı deyib ki, hər iki ölkə qarşılıqlı iqtisadi-ticari fəaliyyət sahəsində böyük inkişaf potensialına malikdir. Başqa sözlə, iqtisadi-ticari əlaqələr nəqliyyat-tranzit məsələsi fonunda müzakirə mövzusu olub. Liderlərin Qazaxıstandan keçməklə Çin Xalq Respublikasından Azərbaycana qədər yol qət edən konteyner qatarının rəmzi qarşılanması mərasimində iştirak etməsi bu istiqamətdəki müzakirələrin qatını açmağa şərait yaradır. Məntiqlə Azərbaycanla Qazaxıstanın geoiqtisadi hədəflər toplusu yüksək texnologiyalı sənayeləşməyə keçidi şərtləndirir. Həmin nöqteyi-nəzər uzunmüddətli hədəflər, iqtisadi firavanlıq üçün birgə planı açıqlayır.

Zəngin sərvətlərə malik olan Azərbaycanla Qazaxıstanın tranzit rolunu da bura əlavə edəndə, gələcəkdə daha yüksək mərtəbələrdə iqtisadi sferanı, o cümlədən istehsal sahəsini, yaşıl enerji platformalarını stimullaşdıracağı göz önünə sərilir. Bunun üçün Tokayevin səfərindən sonra Azərbaycanla Qazaxıstanın Orta Dəhliz marşrutundakı infrastruktura əlavə sərmayələr yatıracağı gözlənilməndir.

PARÇALANMIŞ DÜNYANI BİRLƏŞDİRƏN FORUM





XI Qlobal Bakı Forumunda 68 ölkədən 400-dən çox qonaq iştirak edir. Qonaqlar arasında 40-dan çox hazırkı və sabiq dövlət və hökumət başçıları var. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu, həqiqətən də Forumun nəhəng intellektual potensialına dəlalət edir.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bu həftə Azərbaycan artıq ölkəmizdə keçirilməsi ənənə halını alan daha bir mötəbər tədbirə ev sahibliyi etdi. XI Qlobal Bakı Forumu növbəti dəfə dünyanın müxtəlif düşüncə, siyasət və ictimaiyyət təmsilçilərini bir araya topladı.

BƏŞƏRİYYƏTİ DÜŞÜNDÜRƏN MÖVZULAR

Forumun mövzusu xüsusilə diqqət çəkdi - "Parçalanmış dünyanın bərpası". Əgər beynəlxalq aləmdə baş verən proseslərə nəzər salsaq görərik ki, dünya həqiqətən parçalanıb, hər yerdə ciddi çağırışlar var. Belə bir zamanda bütün bəşəriyyəti düşündürən mövzular, çağırışlar və təhdidlər ətrafında müzakirələr aparılması, çıxış yolları aranması Qlobal Bakı Forumunun nə dərəcədə mühüm əhəmiyyət daşıdığını ortaya qoyur. Forumun açılışında çıxış edən Prezident İlham Əliyev də bu məsələyə xüsusi toxunub. "Bakı Qlobal Forumu Davos Dünya İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı kimi aparıcı beynəlxalq forumlarla bir cərgədədir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialı, iştirakçıların siyahısı baxımından biz həqiqətən də görürük ki, hər il Bakıda keçirilən müzakirələr müxtəlif mühüm beynəlxalq məsələləri daha yaxşı anlamağa imkan verir", - dövlət başçısı bildirib.

Forumun əhəmiyyətini göstərən digər bir amil orada iştirak edən qonaqların sayı və əhatə coğrafiyasıdır. Belə ki, XI Forumda 68 ölkədən 400-dən çox qonaq iştirak edir. Qonaqlar arasında 40-dan çox hazırkı və sabiq dövlət və hökumət başçıları var. Prezident İlham Əliyevin də vurğuladığı kimi, bu, həqiqətən də Forumun nəhəng intellektual potensialına dəlalət edir.

XI Qlobal Bakı Forumunu əvvəlki analoji tədbirlərdən fərqləndirən digər bir xüsusiyyət bir il ərzində bölgəmizdə baş verən geosiyasi dəyişikliklərdir. Belə ki, bu müddət ərzində Azərbaycan beynəlxalq hüquqla tanınan suveren ərazilərində nəzarəti tam olaraq bərpa etdi. Antiterror tədbirlərinin nəticəsi olan bu addım ölkəmiz üçün böyük əhəmiyyət daşısa da, dünya miqyasında çox kiçik görünə bilər. Lakin onun beynəlxalq aləm üçün nəticələri dünyadakı analoji münaqişələrin həlli baxımından çox böyük təcrübə və nümunədir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "Bu, həqiqətən də çox ciddi geosiyasi dəyişiklikdir ki, fikrimcə, həll olunmayan kimi görünən münaqişələrin həllinə çox müsbət təsir göstərəcək".

ANTİ-AZƏRBAYCAN QÜVVƏLƏRƏ TUTARLI CAVAB

XI Qlobal Bakı Forumu həm də ölkəmizə qarşı bir sıra qüvvələrin anti-Azərbaycan kampaniyasını tam sürətlə davam etdirdiyi bir vaxta təsadüf etdi. Forumdan bir gün öncə Cənubi Qafqazda münaqişənin yenidən alovlandırılmasının təkanverici qüvvəsi rolunda çıxış edən Avropa Parlamenti yenidən Bakını hədəfə alaraq qətnamə qəbul etdi. Qərbdəki ikili standartlara xidmət edən, erməni lobbisinin maliyyəsinin quluna çevrilənlərin cavabını Azərbaycan elə məhz XI Qlobal Bakı Forumu kimi mötəbər tədbiri təşkil etməklə vermiş oldu.

FRANSANIN İKİÜZLÜ SİYASƏTİNİN İFŞASI

Dövlət başçısının Forumda çıxışı zamanı dünyanın diqqətinin Bakıya yönəldiyi bir vaxtda Fransanın Azərbaycanla bağlı anlaşılmaz və xəstə təxəyyülün məhsulu olan siyasətini ifşa etməsi xüsusilə önəmlidir. Prezident antiterror əməliyyatlarından sonra göstərilən beynəlxalq reaksiyaya diqqət çəkib: "Burada beynəlxalq reaksiya haqqında danışarkən mən bir ölkənin mövqeyini təəssüflə qeyd etməliyəm. Bu mövqe beynəlxalq ictimaiyyətin yanaşması ilə ziddiyyət təşkil edir. Bu ölkə Fransadır". Prezident Parisin beynəlxalq səviyyədə ölkəmizə qarşı sanksiya cəhdlərinin uğursuzluğa düçar olmasından sonra baş verənləri normal dərk etməyin mümkün olmadığı qənaətindədir: "Fransada, Azərbaycanın şəhərlərinin biri ilə qardaşlaşmış Evian şəhərində vandalizm aktı baş verdi. Azərbaycan şairi Natəvanın heykəli vandalizmə məruz qaldı. Sizə həmin heykəli, üzərindəki qırmızı boyanı və heykəlin qırılmış burnunu təsvir edən şəkilləri nümayiş etdirmək istəyirəm. Bu hadisə Fransada baş verdi və buna səbəb BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqında Azərbaycanı cəzalandırmaq cəhdlərinin uğursuz olması idi. Bu hadisədən sonra hakimiyyət orqanları boyanı yumaq və heykəli bərpa etmək əvəzinə onu, sadəcə, bükdülər və heykəl belə bükülmüş vəziyyətdə bir və ya iki ay qaldı". Bunu vandalizm aktı adlandıran Prezident İlham Əliyev bildirib ki, bir çox hallarda özünü mənəvi lider kimi qələmə verən Fransa kimi bir ölkədə belə hallar qəbuledilməzdir.

SON 30 İLDƏ APARILAN DÜZGÜN SİYASƏT

Qarşıda bizi daha bir möhtəşəm beynəlxalq tədbir gözləyir. Azərbaycan COP29-a ev sahibliyi edəcək. 80 minə yaxın xarici qonaq Bakıya təşrif buyuracaq. Dövlət başçısının da vurğuladığı kimi, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin yaşıl keçidlə bağlı səylərinin qəbul edilməsidir: "Beləliklə, birincisi, COP29 bizə onu nümayiş etdirməyə imkan verəcəkdir ki, müstəqil yaşayan və heç kəsdən asılı olmayan bir ölkə uğurla inkişaf edə bilər. Bu, həm də Azərbaycanın son 30 ildə apardığı düzgün siyasəti nümayiş etdirir. Praktiki nöqteyi-nəzərdən isə bu, bizim üçün həmrəyliyə töhfə vermək fürsəti olacaq. Çünki bizim dördillik sədrliyimiz nəticəsində 120 üzvlə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında xüsusi ab-hava yarandı. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan strateji tərəfdaşlığa dair bəyannamə imzalayıb. Biz 50-dən çox ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının üzvüyük. Yəni, biz müxtəlif ölkələri bir araya gətirmək imkanına malikik və bu gün iqlim məsələlərinin həll edilməsi üçün məhz buna ehtiyac var".



Ermənistan SÜRƏTLƏ BOŞALIR

Ölkəni tərk edənlərin sayı son illər elə bir həddə çatıb ki, artıq söhbət miqrasiyadan yox, depopulyasiyadan gedir. Erməni əhali regionlarda, xüsusən də sərhədyanı ərazilərdə yaşamaqdan bezərək çıxış yolu kimi xaricdə yaşamağa üstünlük verir.

FUAD ABASOĞLU

Ermənistanda ölkəni tərk edənlərlə bağlı artıq rəqəmlər elə həddə çatıb ki, mütəxəssislər həyəcan təbili çalırlar. BMT-nin hesabatlarına əsasən, miqrasiya və təbii artımın ciddi şəkildə azalması səbəbindən 12-17 il sonra Ermənistan əhalisinin sayı 1.5 milyon nəfərə qədər azalacaq. Əgər bu gün erməni dövlətinin rəsmi əhalisi 2.9 milyon nəfərdirsə, növbəti illərdə bu sayın ciddi şəkildə azalması qaçılmaz olacaq. Əgər qlobal orta miqrasiya nisbəti 0.3 faiz ətrafında dövr edirsə, Ermənistanda bu nisbət 30 faizi çoxdan aşıb.

RƏQƏMLƏR NƏ DEYİR?

2023-cü ildə 36 min 512 vətəndaş Ermənistan pasportu ilə ölkəni tərk edib və qayıtmayıb. Son 10 ildə isə bu rəqəm 291 min 327 nəfər təşkil edib. Təkcə 2020-ci ildə ölkəni tərk edənlərin sayı 42 min 786 nəfər olub. Son üç ildə isə turist adı ilə Ermənistanı tərk edən və bir daha geri qayıtmayanların sayı 138 min 24 nəfərdir. Ermənistan müstəqilliyini əldə etdikdən sonrakı 20 il ərzində bir milyon 200 min nəfər ölkə ərazisini tərk edib. Bu, əhalinin 33 faizi deməkdir. Maraqlıdır ki, yaşadığı yeri birdəfəlik tərk edən ermənilər arasında cavanlar və əmək qabiliyyəti olan şəxslər üstünlük təşkil edir. Hələ 2010-cu ildə ABŞ-nin Gallup İnstitutu keçmiş SSRİ respublikaları arasında sorğu keçirib. Məlum olub ki, Ermənistanın hər 1000 nəfərinin 40 faizindən çoxu ölkəni daimi olaraq tərk etməyə, başqa dövlətdə yaşamağa hazırdır.

QARABAĞ ERMƏNİLƏRİNİN KÜTLƏVİ KÖÇÜ

2023-cü ilin sentyabr ayında könüllü şəkildə Qarabağı tərk edənlər Ermənistana üz tutublar. Hələ ötən ilin dekabr ayında "Demokratik konsolidasiya" partiyasının sədri Suren Petrosyan bildirmişdi ki, 17 min qarabağlı artıq Ermənistanı tərk edib. Son günlər əldə edilən məlumatlara görə isə, bu rəqəm indi 30 mindən çoxdur. Yaxın gələcəkdə bu göstəricinin artacağı gözlənilir. Sosial problemlər, daim hökumət tərəfindən incidilmə, aksiyada iştirak edən azyaşlıların belə həbs edilməsi, sosial müavinətlərin azaldılması, məskunlaşma problemi köçün əsas səbəbi kimi görülür.

İRƏVANIN AVROPA VƏ ABŞ XƏYALI

Əgər yaxın illərə qədər Ermənistanı tərk edərək iş üçün başqa ölkələrə üz tutan ermənilərin 80 faizi Rusiyanı seçirdisə, bu gün Avropa və ABŞ-yə köç həvəsində olanların sayı durmadan artır. Yüz minlərlə erməni "Green Card" üçün müraciət edib. ABŞ səfirliyinə daimi yaşamaq üçün müraciət edənlərin sayı 602 min 359 nəfər olub. Bu rəqəm qonşu Gürcüstandan sözügedən lotereya üçün müraciət edənlərin sayından bir neçə dəfə çoxdur. Bu, mühacirət yox, vətəndaşların kütləvi xarakter daşıyan dövləti rəddetmə qərarıdır.

DEPOPULYASİYANI STİMULLAŞDIRAN SƏBƏBLƏR

Təbii ki, ermənilər kütləvi şəkildə ölkəni tərk etməyə vadar edən müxtəlif səbəblər var. Gələcəyə əminliyin olmaması, sabahla bağlı qeyri-müəyyənliyin hər gün artması da buraya daxildir. Bu gün Ermənistanda miqrasiyaya yol açan ən böyük problemlərdən biri işsizlikdir. Əhalinin cavan təbəqəsi ciddi şəkildə işsizlikdən əziyyət çəkir. Hələ bu da az imiş kimi, sosial ədalətsizlik də sadə erməni vətəndaşını narahat edir. Eyni zamanda müəllim, sərhədçi də aldığı məvacibdən şikayətlənir. Çünki Paşinyan hökumətində ən yüksək maaş polis sistemindədir. Hökumət hər il işsizliyə qarşı ciddi mübarizə apardığı barədə yalançı rəqəmlər səsləndirsə də, bu gün Ermənistanda işsizlik rəsmi olaraq 25 faizi çoxdan ötüb.



MİQRASİYA PAŞİNYANI NİYƏ NARAHAT ETMİR?

Miqrasiyanı sürətləndirən siyasi və psixoloji səbəblər də mövcuddur. Məsələn, sorğuda iştirak edənlərin 32 faizi işsizliyə, 30 faizi gələcək perspektivlərini bu ölkədə görmədiklərinə, 20 faizi ədalətsizliyə, 17 faizi isə yaşamaq üçün heç bir şəraitinin olmadığına görə ölkəni tərk etmək niyyətində olduqlarını bildirib. Sorğuya görə, 52 faiz respondent övladlarının Ermənistanda yaşamasının qəti əleyhinə olduğunu qeyd edib.

Maraqlıdır ki, bu tip hallar Paşinyan hökumətini ciddi narahat etmir. Çünki əgər hökumət yerli əhalini işlə təmin edə bilmirsə, onda əhalinin ölkəni tərk etməsi ən yaxşı haldır. Bu qədər problem və narazılıq fonunda işsizlər ordusunun narazılığı hökumət üçün əlavə başağrısına çevrilə bilər. Müxalifətin daim etirazlar və mitinqlərlə hədələdiyi hökumət üçün narazı təbəqənin etirazlara qoşulması arzuolunan deyil. Eyni zamanda qeyd etmək yerinə düşər ki, ölkədə qalan əhalinin, xüsusən də yaşlıların böyük hissəsi miqrantların hesabına dolanır. Təkcə rəsmi rəqəmlərə görə, hər il Rusiyadan, Avropadan və miqrantların yaşadığı digər ölkələrdən Ermənistana 2 milyard dollar göndərilir. Erməni dövlətinin büdcəsini nəzərə alsaq, bu, çox böyük rəqəmdir. Belə bir gəlir mənbəyindən imtina etmək Paşinyan hökuməti üçün çox çətindir. Bu pullar ölkədəki sosial gərginliyi azaldır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ



Makron türk dövlətlərinə MÖHTAC QALACAQ

Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas marşrut hazırda Azərbaycanın üzərindən keçən Orta Dəhlizdir. Makron Mərkəzi Asiyadan uran tədarük edəcəyi təqdirdə yenə də Ermənistanı dəstəkləməklə hədəf aldığı Azərbaycana möhtac olacaq.



AZƏR NURİYEV

Fransanın daxili və xarici siyasətdə uğursuzluqları səngimir. Yay Olimpiya Oyunları ərəfəsində keçirilən etiraz aksiyaları bütün ölkəni bürüyüb. Fermerlər hökumətin aqrar sahədə apardığı islahatlara qarşı çıxır, yolları bağlayır, hakimiyyəti sərt tənqid edirlər.

XARİCİ SİYASƏTDƏ DƏ VƏZİYYƏT FƏRQLİ DEYİL

Xarici siyasətdə də vəziyyət daxildən fərqlənmir. Bir vaxtlar müstəmləkəsi olduğu ərazilərdən biabırcasına qovulan Yelisey sarayı böyük gəlirlərdən məhrum olub. Müstəmləkələrin talanması ölkə büdcəsinə milyardlarla dollar gəlir gətirməklə yanaşı, həm də nüfuz məsələsi idi. İndi isə bunların heç biri yoxdur. Fransız iflasının əsas səbəbi kimi isə prezident Emmanuel Makron göstərilir.

İş o yerə çatıb ki, keçmiş müstəmləkələrdə Fransa bayrağı yandırılır, onu xatırladan hər şey məhv edilir. Onun yerini isə Rusiya və Türkiyə kimi dövlətlər tutur. Bu da Yelisey sarayını özündən çıxarır, əks addımlar atmağa vadar edir. Hər iki dövlətə qarşı total hücum kampaniyası da bu səbəbdən start götürüb. Məsələn, Paris Ukraynaya Avropa İttifaqına daxil olan ölkələrin hərbi kontingentini göndərməklə Rusiyanı hədələyir. Bu ideyası Qərb dövlətlərində avantüra kimi qələmə verilsə də, Makron hər vəchlə sözünü yeritməyə çalışır. Rusiyanı Ermənistandan sıxışdırıb çıxarmaq da bu planın tərkib hissəsidir. Türkiyəyə gəldikdə isə, Fransa mübarizəni açıq apara bilmir. NATO üzrə müttəfiq olması, Ankaranın nüfuzu və gücü bu planını açıq şəkildə reallaşdırmağa imkan vermir. Ümidi qalır yenə Ermənistana. Paris bu ölkədə anti-Azərbaycan ritorikanı gücləndirir, keçmiş separatçı rejimin tör-töküntülərinə açıq dəstək göstərir.

MAKRONUN YENİ HƏDƏFİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYADIR

Bu istiqamətdə ən əsas məsələlərdən biri də Makron Fransasının Mərkəzi Asiyaya nüfuz etməyə çalışmasıdır. Əsas fikir bundan ibarətdir ki, Ankaranın Afrika siyasəti Fransanın müstəmləkə nizamını pozub. Makron da bu səbəbdən Ukrayna-Rusiya müharibəsinə müdaxilə edərək türk dövlətlərini öz hegemonluğu altına almağa çalışır. Son zamanlar o, bu istiqamətdə diqqətçəkən açıqlamalar verir. Türkiyənin Afrikada atdığı addımlar, bir çox ölkələrlə siyasi, hərbi və ticari yaxınlaşması, "qazan-qazan" taktikası Fransanı regionda arzuolunmaz ölkəyə çevirib. Planları alt-üst olan Fransa lideri Afrikadakı məyusluqdan sonra marşrutunu Qafqaza dəyişib, eləcə də Qazaxıstan və Özbəkistana da səfər edib.

TÜRKİYƏ FRANSANIN PLANLARINI POZUR

Makron hökuməti Qarabağda və Liviyada Türkiyəyə qarşı ağır məğlubiyyətə uğrayıb, müdafiə sahəsində türk şirkətlərinə qarşı ciddi itkilər verib. Bunlar faktdır. Mövcud vəziyyətlə bağlı "Türkiyə" qəzetinə danışan ekspertlər qeyd edir ki, türk ordusu Fransanın Suriya və İraqdakı oyununu ciddi şəkildə pozub. Fransızlar da qisas almaq üçün Ermənistanı və Cənubi Qafqazı qızışdırmağa çalışırlar. Fransanın məqsədi uzunmüddətli müharibədir.

KAFKASSAM rəhbəri Həsən Oktay hesab edir ki, "Fransa Suriya və Ermənistanda məskunlaşaraq Türkiyəyə qonşu olmaq istəyir. Fransızların Qafqaza marağının ən mühüm məqsədlərindən biri Türkiyənin diqqətini Aralıq dənizi başda olmaqla, bütün enerji və strateji əhəmiyyətli bölgələrdən yayındırmaqdır. Fransanın yandırmaq istədiyi atəş Türk Dövlətləri Təşkilatına böyük ziyan vuracaq. Makron yeni istismar sahələri açmağa çalışır. Onun türk cümhuriyyətlərinə səfərləri bu kontekstdə dəyərləndirilməlidir", - deyə H.Oktay bildirib.



FRANSANIN URAN ARZUSU



Qeyd edək ki, Emmanuel Makronun ötən il noyabrın 1-də Qazaxıstana səfəri zamanı uran alışı məsələsi prioritet olub. Enerji ehtiyacının 60 faizini Atom Elektrik Stansiyaları hesabına təmin edən Fransa üçün Qazaxıstanın əhəmiyyəti həm də bu ölkənin uranla zəngin olması ilə əlaqəlidir. Uranla zəngin olan və Fransanı təmin edən Nigerdə baş vermiş hərbi çevrilişdən sonra Paris üçün Qazaxıstanın önəmi daha da artıb. Bundan əlavə, Qazaxıstan Rusiya-Ukrayna müharibəsi başlayandan bəri ABŞ və Norveçdən sonra Avropanı yanacaqla təmin edən üçüncü əsas ölkəyə çevrilib. Fransa Qazaxıstan iqtisadiyyatına 17 milyard dollar həcmində sərmayə qoymaqla beş ən böyük investor ölkə sırasında yer alıb. Özbəkistan da Fransa ilə əməkdaşlığı genişləndirməkdə maraqlı görünür. Ötən il prezident Şavkat Mirziyoyev Fransa səfərindən 6 milyard dollarlıq müqavilələr portfeli ilə qayıtmışdı. Bu müqavilələrin əksəriyyəti enerji sektoruna aid idi.

PARİS AZƏRBAYCANA MÖHTACDIR

Beləliklə, müsəlman və türk ölkələrin inkişafını gözü götürməyən Makron yenə də elə türk dövlətlərinə minnətçi düşüb. İstəyi odur ki, Mərkəzi Asiyadan uran tədarük etsin. Bir faktı da deyək ki, uranın hava nəqliyyatı ilə daşınması qadağandır. Quru yolların sahibi ölkələrlə də Makron hakimiyyəti qərəz və düşmənçilik yaşayır. Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas marşrut hazırda Azərbaycanın üzərindən keçən Orta Dəhlizdir. Makron Mərkəzi Asiyadan uran tədarük edəcəyi təqdirdə yenə də Ermənistanı dəstəkləməklə hədəf aldığı Azərbaycana möhtac olacaq.

Beləliklə, ölkəsində müsəlmanlara qarşı "səlib yürüşü"nə çıxan Makron və komandası çətin durumdadır. Yoxsa min kilometrlərlə uzaqda yerləşən regiona üz tutmazdı - özü də müsəlman və türk dövlətlərinə. Görünən odur ki, onlar vasitəsilə problemlərini həll etməyə çalışır. Belə baxanda problemdən çıxış yolu var. Bu yol da sadədir - birtərəfli siyasət yürütməkdən əl çəkmək, şəxsi mənafeyə yox, dövlət mənafeyinə əsaslanan praqmatik siyasətə üstünlük verilməlidir. Əks təqdirdə, Nigerdə olduğu kimi, ayaq basdığı hər yerdən qovulacaq.

İNVESTORLARI DÜŞÜNDÜRƏN BAHALAŞMA

Həm qızılın, həm də "Bitcoin"in qiymətində artım müşahidə edilir. Bu artım bəzi psixoloji baryerləri belə adlayıb. Ekspertlər düşünürlər ki, hər iki bazar dəyişkən olduğu üçün istənilən an qiymət dəyişiklikləri yaşana bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son zamanlar dünya bazarında "Bitcoin"in qiyməti 70 min dolları keçib. Həmçinin qızılın qiyməti də yeni rekord qırmaqda davam edir, son bir ildə 19 faiz bahalaşma qeydə alınıb. İstər "Bitcoin", istərsə də qızıl hazırda investisiya aləti kimi geniş istifadə olunur. Yatırım etmək istəyənlər bu qiymət artımlarından xeyirlə çıxmaq istəyirlər. Onları bu artımların səbəbləri və perspektivi də maraqlandırır.

73.000 DOLLAR ƏTRAFINDA SATILIR

Kriptovalyuta eksperti Elnur Quliyevin sözlərinə görə, martın ilk ongünlüyündə "Bitcoin" son üç ildə ilk dəfə "Binance" birjasında 73.000 dollara qədər dəyər qazandı: "Hazırda isə "bitcoin" 1.4 trilyon dollar bazar kapitalizasiyası ilə 72.000 dollar ətrafında satılır. Bu qiymət ilə o, ümumi bazar kapitalizasiyasının 52.2 faizini təşkil edir. Qiymətin artmasına təsir edən əsas faktorlar korporativ şirkətlərin "Bitcoin"ə kəskin tələbatının yaranması və kriptovalyuta bazarına əlavə kapitalın daxil olması, ABŞ Federal Ehtiyatlar Sisteminin (FED) uçot faiz dərəcəsini vaxtından əvvəl azaldacağı ilə bağlı gözləntilərin artmasıdır".

Ekspertin fikrincə, qiymətdə həm artım, həm də azalma mümkündür: "Analizə əsasən, "Bitcoin"in növbəti hədəfi 80.000 dollara qədər bahalaşmaqdır. Əgər hər hansı səbəbdən ciddi qiymət azalması baş verərsə, bu zaman dəyəri 55.170 və 50.500 dollar ətrafında olacaq. Bundan əlavə, qorxu və xəsislik indeksi hazırda 89 səviyyəsindədir. Bu amil investorlar arasında yüksək alış təzyiqi olduğunu göstərir. Bu göstərici 90 baldan çox olduqda, iri investorlar satış edərək qazanclarını fiksə edirlər. Çünki "həddindən artıq acgözlük" qiymətlərin düşməsi ilə müşayiət olunur".



Pünhan Musayev



İNVESTORLARIN İKİ FƏRQLİ SEÇİM İMKANI

Müsahibimiz bildirdi ki, Azərbaycanda kriptovalyutaların istifadəsi və kriptoinvestisiyaların leqallaşdırılması üçün ilk növbədə müvafiq qanunvericilik aktları qəbul olunmalıdır. E.Quliyev qızılın bahalaşmasının nəticələrinə də toxunub: "Adətən qızılın qiyməti bahalaşırsa, bu, qlobal iqtisadi böhranın yaxınlaşması və ya valyuta bazarına ciddi kapital axını əlaməti kimi qəbul olunur. İnvestorların bir qismi riskli, lakin yüksək qazanclı aktivlərə yatırım edirlərsə, digər qismi qızılı seçirlər. Bu tendensiya hələ bir müddət də davam edəcək. Qlobal makroiqtisadi mənzərədə investisiya tələblərinin formalaşmasında həlledici rolu FED oynayır. Böyük ehtimal ki, yaxın aylarda FED uçot dərəcəsini endirəcək. Uçot dərəcəsinin aşağı salınması maliyyə bazarında dolların likvidliyini artırır, kreditlər ucuzlaşır və bu, investisiya mühitinə müsbət təsir edir. Bunlar ümumilikdə iqtisadi artımı sürətləndirir, biznesə və vətəndaşlara aşağı faiz dərəcələri ilə daha ucuz pul əldə etməyə imkan verir. Ucuz pul investorları yeni texnologiyalara, startaplara və kriptovalyutalar da daxil olmaqla digər riskli aktivlərə investisiya etməyə təşviq edir".



Elnur Quliyev

Ekspertin sözlərinə görə, qızılın qiymətinin yüksəlməsi Azərbaycan iqtisadiyyatına iki istiqamətdə təsir göstərir: "Dünya bazarında qızılın qiymətinin artması ölkəmizin qızıl ixracından əldə etdiyi gəlirin artması ilə nəticələnir. İkinci amil isə, Dövlət Neft Fondunun aktivlərində təqribən 30 ton qızıl var, qiymətlərin artması onların da dəyərini artırır. Yəni biz ölkə olaraq qızılın bahalaşmasında maraqlıyıq".

TƏLƏB VƏ TƏKLİFDƏN YARANAN ARTIM


İqtisadçı Pünhan Musayev isə dedi ki, "Bitcoin"lə bağlı nikbinliyin səbəbi tələb və təklifdən irəli gəlir: "Tələblə bağlı məqam ABŞ Qiymətli Kağızlar və Birja Komissiyasının tənzimləyici addımlarından qaynaqlanır. Təklif sarıdan isə "Bitcoin"i dəyərləndirən məqam onun təchizatı ilə əlaqədardır. Zaman keçdikcə dəyərinin aşınmaması üçün "Bitcoin" məhdud sayda təsis edilib. Hər yeni yaradılan blok üzrə "Bitcoin" mükafatı sayı dörd ildən bir 50 faiz azalır. Məsələn, başlanğıcda mükafat 50 "Bitcoin" idisə, 2012-ci ildə 25, 2016-cı ildə 12.5, 2020-ci ildə isə 6.25 "Bitcoin"ə qədər azalıb. "Halving" adlanan bu proses hazırda "Bitcoin"dəki tədarük şokunu daha da dərinləşdirir. Beləliklə, bəlli miqdar təklif qarşılığında geniş tələb aktivin sürətlə bahalanmasına şərait yaradır".

QIZIL ALIŞINDA SON 50 İLİN REKORDU QEYDƏ ALINIB

P.Musayevin fikrincə, qızılın qiyməti də hələ maksimum həddə çatmayıb: "Qızılın qiymətindəki artım ABŞ dövlət istiqrazlarının gəlirliliyinin azalması, dolların zəifləməsi və yaranan iqtisadi problemlərə cavab olaraq Federal Ehtiyat Sisteminin pul siyasətini yumşaltması gözləntiləri ilə bağlı spekulyasiyaların (alış və satış qiymətləri arasındakı fərq sayəsində gəlir əldə etmək) birləşməsindən irəli gəlir. Ukrayna müharibəsi, 40 ilin ən yüksək inflyasiyası, rekord borc səviyyəsi, Qərb bank sistemində yaşanan müvəqqəti çalxalanma və Yaxın Şərqdəki münaqişədən əlavə, bir sıra ölkələrin qızıl alışını son 50 ilin maksimumuna çatdırmaları fonunda bahalaşma təbii görünür".

“GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATI”NA LAYİQ GÖRÜLƏN TARİYEL AĞAZADƏNİN UĞUR HEKAYƏSİ

“ÖLKƏMİZDƏ KEYFİYYƏTLİ STARTAPLAR ÇATIŞMIR”



Fotolar: Rüfət Mikayılov / Global Media Group



“Gənclər üçün Prezident mükafatı”na layiq görülən Tariyel Ağazadə: “Düşünürəm ki, hər şey insanın özündən asılıdır. Hər bir insan atacağı addıma və verdiyi qərarlara görə nəticə əldə edir. Hər uğurlu insanın hədəfləri var. Məqsədinə çatmaq üçün kiçik hədəflərin olmalıdır”.

Orta təhsilini Xırdalan şəhər 2 saylı tam orta məktəbdə alıb. Məktəbi fərqlənmə ilə bitirib. 642 bal toplayaraq keçmiş Qafqaz Universitetinin Mexanika mühəndisliyi ixtisasına qəbul olub. Elə hər şey bundan sonra başlayıb.

Müsahibimiz bu il “Gənclər üçün Prezident mükafatı”na layiq görülən Tariyel Ağazadədir. O həmçinin, 2020-ci ildə Azərbaycan İnnovasiya Mükafatı üzrə “İlin influenseri”, 2022-ci ildə “İlin Ekosistem Lokomotivi” nominasiyası üzrə “İlin İnnovasiya Adamı” seçilib.

“ƏVVƏL MÜHƏNDİS OLMAQ İSTƏYİRDİM”

T.Ağazadə deyir ki, onu innovasiya sahəsinə gətirən müəllimi olub: “Əvvəl mühəndis olmaq istəyirdim, daha sonra özümü innovasiya, startap sahəsində sınamağa qərar verdim. Müəllimimin şirkətində təcrübəçi olaraq işə başladım. Bir il orada fəaliyyət göstərdim. Təcrübə müddəti bitdikdən sonra elə həmin şirkətdə işə başladım. Daha sonra fəaliyyətimi proqram meneceri olaraq davam etdirdim. Əsası Türkiyədə qoyulmuş və qurucularından biri azərbaycanlı olan startapdan inkişaf üzrə menecer vəzifəsinə dəvət aldım. Orada bir il işlədim. Bu zaman müddətində startapda prosesləri necə getdiyini, biznesin necə qurulduğunu öyrəndim. Sonra Azərbaycanın böyük banklarının birindən iş təklifi gəldi. Orada innovasiya proqramı yaradılırdı və aparıcı mütəxəssis tələb olunurdu. İki ilə yaxındır onlarla çalışıram”.

UĞURSUZLUQDAN DƏRS ALMAQ

Tariyelin texnologiya sahəsində müxtəlif uğurları mövcuddur: “Əvvəldən texnologiya sahəsinə böyük həvəsim var idi. Universitet vaxtı fikirləşdim ki, özümə bloq yaradım. Bloqumu inkişaf etdirib texnologiya və startap paylaşan bir platforma yaratdım. Onu dövlət qurumuna satdıq. Bu, mənim ilk uğurlu biznes layihəm idi. Amma uğursuz olub fəaliyyətini dayandıranlar da mövcuddur. Sonra düşündüm ki, bu işə daha ciddi yanaşmaq və daha böyük investisiya lazımdır. Texnologiya, startap və innovasiya haqqında olan xəbər platformamı yaratdım. Hər bir uğursuzluq təcrübədir. Uğursuz hesab etdiyiniz layihə zamanınızı, maliyyənizi alır. Amma bunun qarşılığında sizə təcrübə verir ki, növbəti dəfə addım atanda həmin səhvi təkrar etməyəsiniz”.

UĞURLU OLMAQ ÜÇÜN ÖLKƏNİN FƏRQİ YOXDUR

Müsahibimiz uğurlu olmağın sirlərindən də danışdı: “Kimisə təqlid etmək, model kimi götürmək olar. Amma getdiyin yol mütləq fərqli olmalıdır. Bəzən deyirlər doğulduğun ölkədən asılı olaraq ya geridə, ya öndəsən. Amma mən düşünürəm ki, hər şey insanın özündən asılıdır. Hər bir insan atacağı addıma və verdiyi qərarlara görə nəticə alır. Hər uğurlu insanın hədəfləri var. Məqsədinə çatmaq üçün kiçik hədəflərin olmalıdır. Onlara bir-bir çatmalısan. Belə olduqda yorulmadan, ruhdan düşmədən, motivasiyalı böyük məqsədə doğru irəliləyirsən. Mənim məqsədim var idi ki, Azərbaycanda texnologiya sahəsində elə bir media qurum ki, ən azı “TOP 3”də olsun, bir çox brendlərlə işləsin. Növbəti hədəf regionda bu uğuru böyütməkdir. Uzun vədəli məqsədlərdə milyonlarla insan tərəfindən istifadə olunan və qlobal səviyyədə fəaliyyət göstərən startap yaratmaq istəyirəm. Uğurlu olduqdan sonra şirkəti satıb qazancımdan investor kimi azərbaycanlı startapçılara yatırım etmək niyyətindəyəm”.

> *Mən platformaya, sosial mediaya daha çox alət, qazanc mənbəyi kimi baxıram. Necə ustaların alətləri olur, mənim də alətim sosial mediadır. Bu alət məni real həyatdan qətiyyən uzaqlaşdırmır, əksinə, daha yaxşı yaşamaq, daha çox pul qazanmaq, inkişaf etmək, insanlarla tanış olmaq üçün vasitə olur.*



STARTAP HƏYATIMIZI DƏYİŞİR

Müsahibimizin sözlərinə görə, startap dünyada çox yayılsa da, Azərbaycanda yatırım ediləcək layihə yoxdur: “İstifadə etdiyimiz sosial şəbəkələr, taksi xidmətləri və sair - hamısı startapdır. Saniyələr içində milyonlar qazanırlar. Startap həm onu quran adamın, həm ondan istifadə edənlərin həyatını dəyişir. Azərbaycanda startapa daha çox cavan nəsil maraq göstərdiyinə görə bir az qeyri-ciddi yanaşırlar. Amma startap qətiyyən boş bir şey deyil, biznesdir. Ənənəvi biznes kimi market açırıq, restoran qururuq ki, o bizə pul qazandırsın. Startap da eyni məntiqə xidmət edir. Sadəcə, yeni bir şey yaradırsız və o, insanların həyatını rahatlaşdırmalı, problemlərini həll etməlidir. Bizdə buna yarış kimi baxırlar. Bəzən yaradırlar ki, sırf mükafat alsınlar. Amma son illər atılan addımlar sayəsində insanların startap anlayışı yavaş-yavaş dəyişir, daha düzgün şəklə gəlir. Özəl qurumlar da yatırımlarını innovasiya sahəsinə edir ki, ölkəyə daha çox fayda versin. Azərbaycanda özəl investorlar bu sahəni öyrənib, startaplara yatırım etmək istəyirlər. Hazırda Azərbaycanda investorlarla bağlı problem yoxdur, əksinə, keyfiyyətli startaplar çatışmır. Əvvəl investor da yox idi, startap da”.

> *Azərbaycanda startapa daha çox cavan nəsil maraq göstərdiyinə görə bir az qeyri-ciddi yanaşırlar. Amma startap qətiyyən boş bir şey deyil, biznesdir. Ənənəvi biznes kimi market açırıq, restoran qururuq ki, o bizə pul qazandırsın.*

Həmçinin biznesin inkişafı üzrə menecer olan Tariyel Ağazadə deyir ki, startap qurarkən tələsmək olmaz: “Tövsiyə edərdim ki, startap quran, yaxud buna maraq göstərən insanlar məhz ekspert olduğu sahə ilə bağlı startap yaratsınlar. Çünki ekspert olduqları sahədə təcrübələri və əlaqələri var. Startapların 90 faizi uğursuz olur. Başlıca məqsəd pul qazanmaq, yaxud istifadəçi yığmaqdır. Baxmalıdırlar ki, startapdan pul qazanırlarmı? Yaxud kütlə yığdıqdan sonra qazanc gətirə biləcəkmi? Bu layihə insanlara lazımdırmı?”

“ÖZƏL ŞİRKƏTLƏR ÇOXLU YATIRIM EDİRLƏR”

Həmsöhbətimiz hər il ölkəmizi dünyada müxtəlif tədbirlərdə təmsil edir: “Ölkəmiz innovasiya və texnologiya sahəsində bir neçə il geridədir. Biz birbaşa onların səviyyəsinə gəlmək üçün radikal addımlar atmalıyıq. Məsələn, Çin inkişaf etməkdə olan ölkədir. Onlar bizdən daha geridə idilər. Texnologiya məsələsinə dövlət o qədər önəm verdi ki, inkişaf etmiş ölkələrdən də önə keçdilər. Tədbirlərdə görürdüm ki, daha maraqlı, kreativ, çətin məsələləri asanlaşdıran startaplar yaradırlar. Xarici ölkələrdə hər bir dövlət qurumunun innovasiya ilə bağlı işi var. Özəl şirkətlər də çoxlu yatırım edirlər. Özləri də startap qururlar, bu texnologiyaları araşdırmaq üçün laboratoriya yaradırlar. Ən bəyəndiyim texnologiya tədbiri İspaniyanın Barselona şəhərində baş tutub. Orada maraq dairəmdə olan ən son texnoloji cihazları təqdim edirlər”.

“DAHA ÇOX TEXNOLOJİ KİTABLAR OXUYURAM”

Deyirlər ki, texnologiya ilə maraqlanan insanlar ruhsuz olur, insanlarla ünsiyyət qurmurlar. Tariyel isə deyir ki, buna peşəkar iş kimi baxdığına görə, onda belə deyil. Amma bir çox hallarda sosial media, virtual reallıq insanları real həyatdan uzaqlaşdırır: “Mən platformaya, sosial mediaya daha çox alət, qazanc mənbəyi kimi baxıram. Necə ustaların alətləri olur, mənim də alətim sosial mediadır. Bu alət məni real həyatdan qətiyyən uzaqlaşdırmır, əksinə, daha yaxşı yaşamaq, daha çox pul qazanmaq, inkişaf etmək, insanlarla tanış olmaq üçün vasitə olur. Ayda bir dənə kitab oxuyuram. O da məhz texnoloji, biznes sahəsində olur. Zamanında poetik şeirlər, romanlar oxumağım cəmiyyətə yararlı kadr olmağıma, danışığıma, hərəkətlərimə təsir edib. Amma hazırda vaxt itkisi olmaması üçün işimə tətbiq edə biləcəyim kitablara daha çox diqqət edirəm”.





“HƏR İL YENİ TELEFON ALIRIQ, AMMA...”

T.Ağazadənin fikrincə, ölkəmizdə texnologiyadan istifadə yüksək səviyyədə deyil: “Hər il yeni telefon alırıq, amma texnoloji yeniliyinə görə yox, sırf brendinə görə. Bəzən dünyada çox populyar olan yenilik bizim insanlar tərəfindən başa düşülmür. Mən bloqumda insanlara texnologiyanı, texnoloji yeniliklər sevdirmək üçün çox sadə, bəsit dildə izah edirəm. Videoları sadə dildə çəkdiyimiz, hamının nəzərə aldığımız üçün milyonlarla insan tərəfindən izlənilir. Platformada izləyicilərdən gələn maraqlı, texnoloji sualları cavablandırırıq. Ailə-məişət problemləri ilə bağlı sualları cavablandıranda milyonlarla izlənmə gəlir. Məsələn, “yoldaşımın xəyanətini necə tapım”, “telefonunu necə izləyim”, “parolunu necə qıra bilərəm”. Qeyri-qanuni olan şeyləri çalışırıq ki, səsləndirməyək”.

BLOGERLƏRƏ QAZANDIRAN DA İNSANLARDIR

İlin influnserilə ölkəmizdə və dünyada məşhur olan influnserliyin sirləri haqqında da söhbətləşdik: “İnflunserin mənası kütləyə təsir etməkdir. Texnologiya sahəsində kütlə bir az dardır. Çünki hamı bizim videoları izləyib başa düşə bilməz. Gözəllik, yemək mövzusunu sevən insanlar və o sahədə blogerlər daha çoxdur. Amma texnologiya sahəsində barmaqla sayılacaq, heç 10 bloger yoxdur. İzləyicimiz az olsa da, qiymətlərimiz onlardan daha bahadır. Çünki dünya brendləri ilə işləyirik, həmçinin kontent daha çətin əmələ gəlir. Brendlər də bizimlə işləməyə məcburdur, çünki başqa keyfiyyətli kontent yaradan yoxdur. Sadəcə, insanlar blogerlərin bu qədər qazandığını başa düşmək istəmir. Amma onlara qazandıran da elə insanlardır. İnflunserlər agentlik vasitəsilə işləyirlər, dövlətə vergi ödəyirlər. Daha sonra agentlik blogerlərə qeyri-rəsmi və ya rəsmi pul köçürür”.

Tariyel “TikTok” platformasının düzgün istifadə olunmadığını, amma yavaş-yavaş vəziyyətin dəyişə biləcəyini düşünür: “TikTok” çox möhtəşəm bir platformadır, heç bir pis tərəfi yoxdur. “TikTok” istifadəçi sayına görə “Facebook”u da, “İnstagram”ı da keçib. Bəzi ölkələrdə qadağa qoyulanda çox məyus oluram. Çünki yaradıcı insanların qazanc, tanınma mənbəyi, sadə insanların isə əyləncə mərkəzidir. Bizim tiktokerlər bu platformanı səhv istifadə edirlərsə, bu, onların günahıdır. “TikTok”da 100 minə yaxın izləyicimiz var. Telefon haqqında bir videomuz 1,7 milyon dəfə izlənilib. Nazirliklərin, qurumların “TikTok” səhifəsi var, öyrədici kontent yaradırlar. Azərbaycanda bu mövzuda dəyişmələr baş verir və daha keyfiyyətli kontentlər gəlir”.

İNSANLARIMIZIN SAFLIĞINDAN İSTİFADƏ EDİRLƏR

Dünya ölkələrində müxtəlif konfranslarda olan müsahibimiz bildirir ki, bizdə bankçılıq digər ölkələrdən daha çox inkişaf edib. Azərbaycanda bank və maliyyə sahəsində startapların az olmasına, çox da inkişaf etməməsinə görə banklar bu məsuliyyəti üzərlərinə götürürlər və startap rolunu oynayırlar: “Bəzi ölkələrdə pul köçürmək, kart yaratmaq, proqram yükləmək üçün banka yaxınlaşmalı, rəsmi ərizə yazmalısan. Sadəcə, biz müqayisə edə, inkişafımızı görə bilmirik. Dünya ölkələrində kibercinayətkarlıq, hakerlik çox inkişaf edib, dələduzluqlar daha ciddi, çətin, düşünülmüş və ağıllı şəkildə baş verir. Ölkəmizdə isə insanların kartından pul çəkilməsi, şəxsi məlumatların, şəkillərinin oğurlanması, şantaj olunması son vaxtlar başlayıb. Bizdə daha çox insanların saf olmasından istifadə edirlər. Məlumatların paylaşılması, pullarının çəkilməsi insanlarımızın öz səhvidir. Rəsmi olmayan, məlumatları oğurlayan proqramları yükləyirlər. Bütün banklar bildirir ki, şəxsi məlumatlarınızı heç kimlə paylaşmayın, hətta bank əməkdaşları ilə də”.

GÖRDÜYÜNÜZ İŞLƏRƏ DƏYƏR VERİN

Son olaraq gənclərə tövsiyələr ilə söhbətimizi bitirdik: “Tövsiyəm odur ki, hansı sahədə olursunuz olun, amma işinizi keyfiyyətli görməyə çalışın. İşi yola versəniz, bilin ki, özünüzü yola verirsiniz. Maaşlı işlədiyiniz yerdə belə, işi düzgün görsəniz, oradan öyrənəcəksiniz. İkinci məsələ insanlara faydanız toxunmalıdır. İşlərlə bağlı paylaşımlar edin, görüşlərə gedin, maksimum faydalı olmağa çalışın”.

ƏLİNİZ CİBİNİZDƏ OLSUN!



Novruz bolluq, bərəkət rəmzi sayılır. Bu səbəbdən süfrəmizə hər cür naz-neməti düzməyə çalışırıq. Lakin bu gün bazardakı qiymətlər süfrələrin də nizamına təsir edir. Süfrəsini bolluca nemətlərlə bəzəyib bayramı ürəyi istədiyi kimi keçirmək hər ailəyə nəsib olmur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Yurdumuza bahar gəlir. Ta qədimdən yazın gəlişini bayram kimi qeyd etmişik. Məhz bu bayramın bolluq, bərəkət gətirəcəyinə inandığımız üçün süfrəyə hər cür naz-neməti düzməyə çalışırıq. Süfrələrdə təbiətin rənglərinin harmoniyası yaradılır. Lakin bu gün bazardakı qiymətlər süfrələrin də nizamına təsir edir. Süfrəsini bolluca nemətlərlə bəzəyib bayramı ürəyi istədiyi kimi keçirmək hər ailəyə nəsib olmur. Maraqlıdır, Novruz süfrəsi bu il bir ailəyə minimum neçəyə başa gələcək?


ŞƏKƏRBURA, PAXLAVA, QOĞAL...

Novruzu adına musiqilər bəstələnən, xonçalara bəzək vuran şəkərbura, paxlava, qoğalsız təsəvvür etmək olmaz. Varlı, kasıb fərq etməz, hər ailənin bayram süfrəsində səməni nə qədər önəmlidirsə, bu üç şirniyyat bir o qədər vacibdir. Bəs görək, bunları bişirmək neçəyə başa gəlir?

Şirniyyatlar üçün iki kiloqram un minimum üç manat, yağ kərə yağıdırsa, iki kiloqramı 30 manat, qatıq 3-4 manat, on ədəd yumurta bir manat 70 qəpik, bir kiloqram qoz ləpəsi 16 manat, bir kiloqram fındıq ləpəsi 15 manat, iki kiloqram şəkər tozu dörd manatdır. Əlavə ədviyyatlar üçün iki manat vəsaitə ehtiyac var. Beləliklə, Novruz şirniyyatlarının hazırlanması minimum 73-74 manata başa gəlir. Əgər bu şirniyyatları hazır almaq istəyirsinizsə, şəkərburanın bir ədədi minimum bir manat, paxlavanın kiloqramı 20 manatdan başlayır, qoğalın isə bir ədədi minimum bir manatdır. Yəni, dörd nəfərlik ailəyə minimum on şəkərbura, on qoğal alsaq, bir kiloqram da paxlavanı üzərinə gəlsək, 40 manatımızdan keçməli olacağıq.

ŞAH PLOVUN ŞAH KİMİ QİYMƏTİ

Süfrələrin şahı plovdur. Plovsuz Novruz Bayramı təsəvvür edilməz. Bir ailə plov yemək üçün bir kiloqram düyüyə minimum beş manat ödəməlidir. Yanında "aş-qarasını" saysaq, 20 manat da buna xərclənməlidir.



Bu gün ən çox xərc tutan məhsullar ət və kərə yağıdır. Mal ətinin bir kiloqramı 13 manat, qoyun əti 17-18 manat, toyuq əti 6-10 manatdır. Əgər balıq almaq istəsəniz, məsələn, kütüm üçün 17-20 manatınızdan keçməli olacaqsınız.

BİR XONÇA NEÇƏYƏ BAŞA GƏLİR?

Bazardakı qiymətləri iqtisadçı ekspert Rauf Qarayevlə də müzakirə etdik. Həmsöhbətimiz masaların bəzəyi olan xonçanın qiymətlərini araşdırıb: "İydənin bir kiloqramı 7-8 manat, innab 6-12 manat, xurma 10-14 manat, qoz və fındıq səkkiz manat, qoz ləpəsi 15 manat, fındıq ləpəsi 16 manat, şabalıd 14 manat, ərik 8-20 manat, turşu yeddi manat, kişmiş səkkiz manat, püstə (İran) 26-28 manat, püstə (Türkiyə) 31-36 manat, şəkər tozu 2.20 manat, buğda unu bir manatdır. Yəni, bir xonçaya minimum 127 manat pul xərclənir".

MEYVƏSİZ SÜFRƏ OLAR?

Gələk meyvələrə. Meyvəsiz süfrə olar? Amma meyvəqabınızı doldurmaq istəyirsinizsə, minimum 17 manatınızdan keçməlisiniz: "Mandarinin bir kiloqramı üç manat, kivi dörd manat, banan üç manat, ananas yeddi manatdır".

QİYMƏT ARTIMI QEYDƏ ALINIB?

İqtisadçı deyir ki, isti yeməklərə xərclənən pul minimum 41 manat, şirniyyata 50 manat, şirələrə isə altı manatdır. Dörd nəfərlik ailə bayram süfrəsi açmaq üçün minimum 270 manat xərcləməlidir.



Hər kəsi builki qiymət artımı maraqlandırır. İqtisadçının sözlərinə görə, keçən ilin mart ayında qeydə alınan inflyasiya 13,8 faiz təşkil edib. Bu ilin yanvarında isə sözügedən göstərici 1,7 faizdir. Yəni, ciddi qiymət artımı qeydə alınmır".

NOVRUZ BAYRAMININ MƏSRƏFİ

Yaşayış minimumuna gəldikdə, iqtisadçı qeyd edir ki, 2024-cü il üçün yaşayış minimumu ölkə üzrə 270 manat, əmək qabiliyyətli əhali üçün 287 manat, pensiyaçılar üçün 222 manat, uşaqlar üçün 235 manat məbləğində müəyyən edilib: "Əgər ailədə ana, ata və iki uşaq varsa, 1044 manat gəliri olmalıdır ki, həmin ailə bir ay yaşaya bilsin. 1044 manat gəlirin 270 manatını Novruz Bayramında məsrəf etməlidir. Ehtiyac meyarının həddi haqqında qanunla isə ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2024-cü il üçün bu göstərici 270 manat məbləğində təsdiq edilib. Ehtiyac meyarına nəzər yetirdikdə 270 manat bir adamın aylıq minimum yaşaması üçün məbləğdir. Yaşayış minimumu da, 270 manatdır. Əvvəllər fərqli rəqəmlər idi. Amma bu məbləğ kasıb adamın bayramı keçirməsinə bəs etmir. Nəticədə orta təbəqə və yuxarı təbəqədən fərqli olaraq kasıb insanlar bayramı keçirmək üçün ətrafdan asılı olacaqlar".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 634
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Məsuliyyətsiz valideynin iTİRMƏK TƏHLÜKƏSİ

Qanunvericilikdə nəzərdə tutulan dəyişikliyə əsasən, həyatı və ya sağlamlığı üçün birbaşa təhlükə yaranarsa, uşaq valideynlərindən alına biləcək. Xaricdə çoxdandır tətbiq olunan təcrübə, bizdə də reallaşdırılacaq.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az



Uşağı valideynlərindən uzaqlaşdırmaq travmatik bir təcrübədir. Əslində, bu, valideynlik hüququndan məhrum edilməzdən əvvəlki son addımdır. Heç şübhəsiz, valideynlərin övladı böyütmək üçün hüquq, vəzifə və öhdəlikləri var. Ancaq uşağın valideynləri ilə qalması onun hüquqlarını pozursa və sağlamlığına ziddirsə, onda nə etməli?

Dünya ölkələrinin uzun illərdir ki, bu istiqamətdə əhəmiyyətli təcrübəsi var: valideynlər tərəfindən uşağın həyatına və sağlamlığına bilavasitə təhlükə yarandığı hallarda uşaq onlardan yalnız məhkəmənin qərarı ilə deyil, sosial işçilər tərəfindən də götürülə bilər.

Artıq bizim ölkəmizdə də bu təcrübə tətbiq ediləcək. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu günlərdə keçirilən iclasında "Məişət zorakılığının qarşısının alınması haqqında" qanuna edilən dəyişiklik buna əsas verir: uşağın həyatı və ya sağlamlığı üçün birbaşa təhlükə yaranarsa, valideynlərindən alına bilər.

BELƏ BİR DƏYİŞİKLİYİN GÜNDƏMƏ GƏLMƏSİNİN SƏBƏBİ NƏDİR?

Vəziyyət bəzi ailələrdə uşaq zorakılığı ilə bağlı mənzərənin o qədər də yaxşı olmadığını göstərir. Təkcə Uşaq Qaynar Xəttinə olunan müraciətlər bunu deməyə əsas verir. Məsələn, əgər əvvəllər xəttə daha çox böyüklər müraciət edirdisə, indi uşaqlar telefon açırlar. Mərkəzin operatoru: "Hər gün Qaynar Xəttə zənglər olur.



Bəzən gün ərzində bir neçə zəng daxil olur", - deyə sorğumuza cavab olaraq bildirdi: "Həm paytaxtdan, həm də rayonlardan zənglər edilir. Telefon açanların çoxu qızlardır. Ailədə valideynləri tərəfindən müxtəlif zorakılıqlara məruz qaldıqlarını deyirlər".

Əslində, uşaqların hüquq və maraqlarının əks olunduğu müddəa bizim qanunvericilikdə vardı. 1998-ci ildə qəbul edilən "Uşaq hüquqları haqqında" qanun, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" əsasnamə, icra hakimiyyətlərinin nəzdində himayəçilik və qəyyumluq şöbələri, uşaq hüquqları üzrə QHT-lər uşaq hüquqlarına zidd hərəkətlərlə bağlı müvafiq siqnallar verirdilər. Ancaq bütün dünya ölkələrinin qanunvericiliyində illərdir yer alan qaydalar bizdə bir qədər "humanist"liyə köklənmişdi.

"VALİDEYNLƏR BUNDAN SUİ-İSTİFADƏ EDİRLƏR"

"Ümidli gələcək" təşkilatının rəhbəri Kəmalə Aşumovanın sözlərinə görə, tüfeyli həyat sürən, zərərli vərdişlərə malik valideynlər olan ailələrdə uşaqların mənfi hallarla üzləşmələri, zorakılığa məruz qalmaları, təhsildən yayınmaları və s. ilə bağlı statistika ürəkaçan deyil: "Bu faktlar onu göstərir ki, qanuna dəyişiklik zəruridir. Bəzən təcrübədə erkən nikaha sövq edilmə, ailə üzvü tərəfindən cinsi zorakılığa məruz qalma, narkotik istifadəçisi olan valideynlərin uşaqlarına qayğı göstərməməsi kimi hallarla qarşılaşırıq. Qanunda dəqiq maddə olmadığından polis və ya sosial işçilər və QHT əməkdaşları müdaxilə edəndə yalnız valideynlə söhbət edir, reabilitasiyaya cəhd edir. Amma bu hallar nəticə verməyəndə biz ailədən uşağı götürə bilmirdik. Çünki qanunda bununla bağlı xüsusi maddə yox idi. Valideynlər də bundan sui-istifadə edirlər". K.Aşumovanın fikrincə, qanunda belə bir dəyişikliyin olması müsbətdir. Eyni zamanda, bunu tətbiq edən dövlət qurumları da vəziyyətdən sui-istifadə etməməlidirlər: "Biz ilk növbədə uşağın rifahı naminə valideynə reabilitasiya üçün şans verməliyik. Əgər o hallarda da valideyndə heç bir müsbət dəyişiklik baş verməzsə və uşağın həyatına təhlükə varsa, onun digər qohumu və ya qəyyumu ola biləcək şəxslərə verilməsi və ya dövlətin himayəsinə verilməsi həyata keçirilməlidir".



Kəmalə Aşumova

UŞAQLAR DÖVLƏTİN HİMAYƏSİNƏ VERİLƏCƏK

"Azərbaycan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasını imzalayıb və ondan sonra "Uşaq Hüquqları haqqında" qanun qəbul edilib. Həm konvensiyada, həm də qanunda əsas prinsip ondan ibarətdir ki, uşaq hüquqları ilə valideyn hüquqları arasında ziddiyyət təşviq edilərsə, uşaq hüquqları üstün tutulur", - deyə Vəkillər Kollegiyasının üzvü Ruslan Vəliyev bildirir: "Bu o deməkdir ki, hər bir dövlət orqanı, o cümlədən məhkəmələr uşaq hüquqlarını üstün tutmalıdırlar. Əgər uşağın hüquqları onların valideynləri tərəfindən pozulursa, təbii ki, dövlət orqanları bununla bağlı hərəkətə keçməlidirlər. Hətta deyərdim ki, bu qaydaların həyata keçirilməsi bir az gecikib. Əminəm ki, uşaq hüquqları bundan sonra daha da üstün formada qorunacaq". Hüquqşünas qanuna edilən dəyişikliyi son illər ailələrdə məişət zorakılığının daha çox baş verməsi ilə əlaqələndirir: "Zorakılıq siqnalları uşaqların hüquqlarının qorunmalı olduğunu daha ciddi gündəmə gətirir. Hər bir vətəndaşın da borcudur ki, törədilən və törədilə biləcək hüquq pozuntusu ilə bağlı lazımı instansiyalara məlumat versin. Əgər uşaq hüquqlarının qorunması ilə bağlı siqnal daxil olarsa, uşaq mənafe-lərinin üstün səviyyədə qorunması məqsədilə uşaq həmin ailədən alınacaq və dövlətin himayəsində olan orqanlara təhvil veriləcək".



Ruslan Vəliyev

R.Vəliyev Ailə Məcəlləsində də oxşar müddəaların yer aldığını bildirir: "Valideynlərin hüquqlarının məhdudlaşdırılması və ya hüquqdan məhrum edilməsi, hətta uşaqların alınması ilə bağlı maddələr var. Bu halda da qanun icazə verir ki, həmin uşaqların dövlətin himayəsinə verilməsi ilə bağlı addım atılsın. Yəni daha da böyük proseduralar keçmədən, məhkəməyə gedib çıxmadan müvafiq orqanlara elə səlahiyyətlər verir ki, ilkin araşdırmalar aparsınlar və məsələ ilə bağlı öz rəylərini versinlər.

Hüquqşünas hesab edir ki, bu dəyişiklik hazırkı mərhələdə problemin inzibati qaydada həllini nəzərdə tutur: "Biz indiyə qədər başqa ölkələrin təcrübəsində görürdük ki, sosial idarələr gəlib uşağı götürürdülər. Bu, bizim üçün təəccüblü olsa da, bütün dünyada tətbiq olunan qaydadır. Bu, ona yönəlib ki, valideynlərin hüquqları uşaq hüququndan üstün tutula bilməz. Bu məsələlərdə dövlət orqanları hər kəsin - valideynlərin, qohumların, qəyyumların və başqalarının hüquqlarını pozacaq. Uşaqların hüquq və maraqlarının qorunması məqsədilə bu addımlar atılacaq. Fikrimcə, bu, ailələr üçün siqnal olmalıdır".

QLOBAL ŞİRKƏTLƏR YERLİ sahibkarlara təhlükədir

"Çox şirkətlər bağlanacaq, rəqabətə davam gətirə bilməyəcək. Amma yeni şirkətlər yaranacaq. Hazırkı iqtisadi siyasətlə texnoloji inkişafdan geri qalacağıq. Ölkənin bu istiqamətdə inkişafı çox vacibdir".



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az



"Son bir neçə ildə Azərbaycanda qlobal iri texnologiya şirkətləri tərəfindən rəqabət pozuntularına yol verildiyi müşahidə olunur". Bunu İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli deyib. Nazirlik rəsmisi bildirib ki, qlobal şirkətlərin bizim qaydalara uyğunluğuna nail olmaq bəzən problemə çevrilir: "Nisbətən kiçik bazarların da öz mürəkkəbliyi var. Təəssüf ki, həmin şirkətlərlə əlaqə qurmaq və onları əməkdaşlığa dəvət etmək öz müsbət nəticəsini verməyib".

Bəs qlobal şirkətlərlə rəqabətdə yerli şirkətləri qorumaq üçün qızıl ortanı necə tapaq?

BU ŞİRKƏTLƏRİN BÜDCƏSİ TRİLYONU KEÇİR

Şirkət rəhbəri, marketinq və biznes mütəxəssisi Pərviz Azərelli deyir ki, qlobal şirkətlər arasında hazırda ən çox problem yaradan texnologiya sahəsində ixtisaslaşanlardır: "Onların milyardlarla, trilyonlarla dəyəri var. Dünyanın bir çox ölkələrində kiçik sahibkarlar rəqabətdə bu şirkətlərə uduzurlar. Bu şirkətlər dünyanın bir çox yerlərində müxtəlif filiallar, mərkəzlər açır, daha yaxşı vergi şərtləri təklif edən ölkələrə gedirlər. Həmçinin məhsul və xidmətlər satan beynəlxalq qlobal şirkətlər də uzun illərdir fəaliyyət göstərirlər və istehsal sahəsində xidmət göstərən yerli şirkətlərə problemlər yarada bilirlər".

YERLİ ŞİRKƏTLƏRDƏ ÖZÜNÜMÜDAFİƏ FORMALAŞMAYIB

Belə nəhəng şirkətlərlə rəqabətdə necə dözümlü olmaq məsələsinə gəldikdə isə, mütəxəssis vurğulayır ki, ölkəmizdə uzun illərdir milli iqtisadiyyatın stimullaşdırılması, daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmiş dövlət siyasəti aparılır: "Türkiyə də daxil olmaqla, əksər ölkələr dünyada bir sıra ticarət qurumlarının üzvləridir. Bizdə isə MDB ölkələrini çıxsaq, demək olar ki, bazarımız dünyanın əksər ölkələrinə bağlıdır. Uzun illərdir ölkədə yerli şirkətlər dövlət tərəfindən qorunduğu üçün xarici bazarlara müqavimət baxımından onlarda özünümüdafiə formalaşmayıb".

Mütəxəssis vurğulayır ki, dövlət bu siyasəti aparmasa idi, ölkə iqtisadiyyatına ciddi zərbə dəyə bilərdi. Çünki ölkəmiz SSRİ dağıldıqdan sonra müharibə, ağrılı-acılı günlərlə üz-üzə qaldı, iqtisadiyyatın tənizmlənməsi uzun dövrü əhatə etdi.



Pərviz Azərelli

ÇOX ŞİRKƏTLƏR BAĞLANACAQ

Mütəxəssis sonda vurğuladı ki, müharibə dövrü keçən, kifayət qədər çətinliklərlə üzləşən ölkə olmağımıza baxmayaraq, hökumət tərəfindən infrastruktur layihələri həyata keçirilir, müəyyən innovativ addımlar atılır, sosial müdafiənin gücləndirilməsi ilə bağlı ciddi işlər görülür: "Növbəti mərhələ mənə görə açıq iqtisadi siyasət olmalıdır. Dövlət tərəfindən müdafiə olunmaq normaldır, xüsusilə kənd təsərrüfatı sahəsində vacibdir. Amma şaxələnmək istəyiriksə, açıq iqtisadi siyasət aparmaqla gələcəyimizi qura bilərik. Düzdür, belə olsa çox şirkət bağlanacaq, rəqabətə davam gətirə bilməyəcək, amma yeni şirkətlər yaranacaq. Hazırkı iqtisadi siyasətlə texnoloji inkişafdan geri qalacağıq. Ölkənin bu istiqamətdə inkişafı çox vacibdir".

NAZİRLİK NƏ DEYİR?

Məlumat üçün bildirək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və onun tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) startap bazarının genişlənməsi üçün bir sıra addımlar atır. Əgər yerli şirkətlər qlobal bazara uduzursa, nazirlik bu vəziyyətdən çıxış yolunu nədə görür?

"Kaspi" qəzetinə açıqlama verən İRİA-nın innovasiya ekosistemi departamentinin baş layihə meneceri Camal Ağayev hazırda dünyada da müşahidə olunan mövcud duruma uyğunlaşmaq üçün həm dövlət dəstəyi, həm də startapların etməli olduqları işlərdən danışıb. Dövlət rəsmisinin sözlərinə görə, kiçik startapları qorumaq üçün əsas məsələlərdən biri güclü qanunvericilik və rəqabət pozuntularına yol verəcək satınalmaların olmasının qarşısını almaqdır: "Qlobal iri texnologiya şirkətləri çox vaxt kiçik startapları satın alaraq fəaliyyətinə son verir və bazarda rəqabətliliklərini qorumağa çalışırlar. "Meta", "Microsoft", "Google", "Amazon" bunlara misaldır. Məsələn, "Google" yarandığı gündən 200-ə yaxın startapı satın alıb. Böyük şirkətləri kiçik startaplardan fərqləndirən əsas iki məqam insan kapitalı və maliyyədir. Təəssüf ki, startapların bu iki resursa əlçatanlığı çətindir. Hazırda dövlət tərəfindən maliyyə əlçatanlığının təmini məqsədilə eyniləşdirmə fondlarının, vençur fondlarının, biznes mələk investor klublarının yaradılması və fəaliyyəti dəstəklənir. Eynilə, yerli investorlar, mentorların yetişdirilməsi üzrə təlimlər və proqramlar həyata keçirilir. Eyni zamanda, ölkədə texnologiya sahəsində fəaliyyət göstərəcək yüksək keyfiyyətli insan kapitalının yetişdirilməsi məqsədilə "Technest", "Technion", "Holberthon School" və digər önəmli proqramlar keçirilir. Bunlar startapların daha güclü struktura malik olmağını təmin etməyə və onların rəqabətədavamlı olmasına kömək edir".





Camal Ağayev

KİÇİK STARTAPLARIN ŞANSI BÖYÜKDÜR

Qurum rəsmisi bildirir ki, kiçik bazarlardakı startapların böyük şirkətlər ilə mübarizə aparmasına daha bir əngəl onların çox dar bazara xidmət etməsi və qlobal bazara daxil ola bilməməsidir: "İRİA-nın təşəbbüsü ilə həyata keçirilən və startapların xarici innovasiya tədbirlərinə deleqasiyasını özündə ehtiva edən "Roadshow" proqramı yerli startapın xarici bazara açılması, xarici potensial tərəfdaşlar və investorlar ilə ilkin tanışlıq əldə etməsini təmin edir. Yerli startaplar eyni zamanda böyük qlobal şirkətlərin edə bilmədiyi "pivot" qabiliyyətinə malikdir. Müştərinin ehtiyacı daxilində kiçik şirkətlər öz dəyər təkliflərini qısa müddətdə dəyişə və daha effektiv hala gətirə bilərlər. Xüsusilə müştəri məmnuniyyətini təmin etməkdə kiçik startapların əhəmiyyətli dərəcədə şansı vardır. Startapların yerli bazarda rəqabətdə güclənməsi üçün, yerli bazarda fəaliyyət göstərən böyük şirkətlərin innovasiya ekosisteminə və startaplara birbaşa dəstək göstərməsinə, investisiya axınını təmin etməsinə, tərəfdaşlıq və böyümə dəstəyi verməsinə şərait yaradılır. Özəl-dövlət tərəfdaşlığının bir missiyası olaraq transmilli şirkətlərin Azərbaycanda startaplar üçün tədqiqat laboratoriyaları açmasına, universitetlərdə tədqiqat mərkəzlərinin təsis edilməsinə İRİA tərəfindən təşviq və şərait yaradılır".

YENİ QANUN HAZIRLANIR

Mütəxəssis sonda vurğuladı ki, İRİA hazırda bu sahədə güclü qanunvericiliyin hazırlanması üzrə əsas məsul qurumdur və layihə üzərində işlərin böyük bir hissəsi yekunlaşıb: "Yaxın zamanda qanunun qəbulu gözlənilir. Eyni zamanda, müəyyən vergi güzəştləri də müzakirə oluna bilər. Misal olaraq, investorlar startaplara investisiyadan əldə edəcəkləri gəlirə görə müəyyən güzəştlər ilə təmin oluna bilərlər. Və ya startaplar edilən investisiyalardan gəlir vergisi verməyə bilərlər. Digər bir məqam isə ümumi startap keyfiyyətinin artırılmasıdır. Ancaq keyfiyyətli startapların mövcudluğu yerli və xarici investorları daha çox investisiya etməyə cəlb edə bilər. Bunun üçün isə yerli startapların inkişafına töhfə verən proqram və tədbirlərin sayı və keyfiyyəti artırılmalıdır".



“Nar” sərfəli mobil operator mövqeyini qoruyur

“Nar” 2023-cü ilin nəticələrinə dair keçirdiyi mətbuat konfransında sərfəli qiymət siyasəti üzrə liderliyini, müştəri məmnuniyyəti ilə bağlı uğurlu göstəricilərini, əhatə dairəsinin genişləndirilməsi və mühüm sosial yönümlü layihələri barədə geniş məlumat verib.

Müştəri Loyallığı İndeksi nəticələrinə görə mobil operatorlar arasında “Nar” yüksək nəticə göstərərək 2023-cü ildə ölkə üzrə lider olub. Müstəqil araşdırma şirkəti tərəfindən aparılmış sorğunun nəticələrinə görə, əsas razılıq bildirilən indikatorlar sərfəli qiymət, üstün müştəri təcrübəsi və internet paketləridir.

“Nar”ın baş icraçı direktoru Qunnar Panke ötən ilin uğurlu nəticələri barədə danışaraq bildirib: “Ardıcıl 5-ci ildir, sərfəli qiymət və müştəri məmnuniyyəti üzrə lider mövqeyimizi qorumağa nail olmuşuq. 2024-cü ildə də müştəriyönümlülük və sərfəli qiymət strategiyamıza sadiq qalmağı hədəfləyirik, çünki “Nar” sənə ən yaxın mobil operatordur”.

Konfrans zamanı müştərilər üçün xərclərin şəffaflığını və müxtəlif xidmət əməliyyatlarını asanlaşdıran “Nar+” tətbiqinin yenilənmiş versiyası da təqdim edilib. Yenilənən tətbiqin interfeysində ən çox istifadə olunan funksiyalar önə çıxarılmaqla yanaşı, balans artımı, internet paketin yenilənməsi, tarif dəyişikliyi və digər əməliyyatları bir kliklə həyata keçirmək imkanı da verilir.

Sərfəli xidmətləri ilə yanaşı, yüksək müştəri məmnuniyyətini də xüsusi diqqətdə saxlayan “Nar”ın xidmət mərkəzlərinə 2023-cü ildə müraciət edənlərin 98.6%-i göstərilən xidmətlərdən razılıqlarını bildiriblər. 2022-ci illə müqayisədə artan bu göstəricinin əldə olunmasında əsas faktor yeni konseptli mağazalara keçidin davam etdirilməsidir. Operator ötən il yenilənmiş 25 mağazasını təqdim edib.

“Nar” Laçın şəhərində satış və xidmət mərkəzini təqdim edən ilk operator olub. Abunəçilərinə daha yaxın olmaq məqsədilə, “Nar” qısa zamanda Şuşa, Xankəndi, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın, Xocavənd, Füzuli, Tərtər və Ağdam şəhərlərinin öz əhatə dairəsinə daxil edilməsinə nail olub.

“Nar” 2023-cü ildə korporativ sosial məsuliyyət strategiyası çərçivəsində 30 sosial təşəbbüsün gerçəkləşdirilməsinə dəstək olub. Operator ötən il həyata keçirdiyi layihələrə 2.4 milyon manatdan çox vəsait ayırıb. “Nar”ın davamlı olaraq həyata keçirdiyi “Jest dili.az” sosial layihəsi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən “Korporativ məsuliyyət” istiqamətində ən uğurlu layihə olaraq “Qızıl Dünya Mükafatı”na layiq görülüb.

“Nar” 2024-cü ildə də ən sərfəli operator mövqeyini saxlamaqla, müştəriyönümlü strategiyasını davam etdirməyi, yeni konsepsiyalı daha 18 mağazasını müştərilərin xidmətinə təqdim etməyi, azad edilmiş ərazilərdəki əhatə dairəsini genişləndirməyi və həyata keçirilən sosial layihələrə investisiya yatırımlarını davam etdirməyi planlaşdırır.

5 171 AİLƏNİN KÖÇÜRÜLMƏSİ PLANLAŞDIRILIR



Keçən ilin sonunadək işğaldan azad olunmuş ərazilərə ümumilikdə 1 186 keçmiş məcburi köçkün ailəsi (4 691 nəfər) köçürülüb. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq, 2026-cı ilədək 34 500 ailənin (140 min nəfərin) doğma torpaqlarına qayıdışı təmin olunmalıdır.

Milli Məclisin martın 15-də keçirilən plenar iclasında Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı müzakirəyə çıxarılıb. Hesabatı Baş nazir Əli Əsədov təqdim edib.

ƏRZAQ TƏHLÜKƏSİZLİYİNƏ 478 MİLYON MANAT AYRILIB

Baş nazir bildirib ki, 2023-cü ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalçılarına maliyyə dəstəyi olaraq, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 478 milyon manat vəsait ayrılıb. Bundan başqa, bu il yanvarın 1-dən kənd təsərrüfatı sahəsi üzrə vergi güzəştlərinin müddəti daha 3 il uzadılıb.

DƏRMAN VASİTƏLƏRİNƏ QİYMƏTQOYMA SİSTEMİ TƏKMİLLƏŞDİRİLİR

Onun sözlərinə görə, Azərbaycanda dərman vasitələrinə qiymətqoyma sistemi təkmilləşdirilir. Dərman vasitələrinin tənzimlənməsi sahəsində qanunvericilikdə beynəlxalq təcrübəyə uyğun mühüm dəyişikliklər edilib: “Əczaçılıq sahəsində qabaqcıl ölkələrdə istehsal olunan dərman vasitələrinin dövlət qeydiyyatına alınması prosesi sadələşdirilir, qiymətqoyma sistemi təkmilləşdirilir, elektron resept tətbiqinə başlanılır”.

TƏHLÜKƏLİ VƏZİYYƏTDƏ OLAN BİNALAR

Baş nazir Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə ən təhlükəli vəziyyətdə olan binaların sayını da açıqlayıb. Bildirib ki, bu şəhərlərdə 69 belə bina var.

Ölkə ərazisində qəzalı binalarla bağlı problemlərin həlli üçün son illərdə respublikanın 12 şəhər və rayonlarında qəzalı binaların sökülərək yeni binaların tikintisinə və ya sakinlərə maddi yardımların verilməsinə 44,7 mln. manat vəsait ayrılıb.

“26 binada yaşayan 971 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bu istiqamətdə Prezidentin tapşırığına uyğun olaraq, Bakı, Gəncə və Sumqayıt kimi iri şəhərlərdə ən təhlükəli vəziyyətdə olan 69 bina (2886 ailə) ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün 50 mln. manat vəsait ayrılıb. Növbəti 3 ildə bu istiqamətdə işlər davam etdiriləcək”, - Əli Əsədov əlavə edib.

QARABAĞDA YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SAYI AZADILACAQ

Ə.Əsədov işğaldan azad edilmiş ərazilərə köç prosesinə də toxunub. “Bu ilin sonunadək azad olunan ərazilərə 5 171 ailənin köçürülməsi planlaşdırılır”, - dyə Baş nazir hesabatı təqdim edərkən deyib. Xatırladıb ki, keçən ilin sonunadək işğaldan azad olunmuş ərazilərə ümumilikdə 1 186 ailə (4 691 nəfər) keçmiş məcburi köçkün köçürülüb.

Ə.Əsədov qeyd edib ki, bu ilin sonunadək işğaldan azad olunan 25 yaşayış məntəqəsi üzrə ümumilikdə 5 171 ailənin (20 min nəfərdən çox) köçürülməsi planlaşdırılır: “Bundan başqa, əsas vəzifələrdən biri də Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir. Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq 2026-cı ilədək 34 500 ailənin (140 min nəfərin) doğma torpaqlarına qayıdışı təmin olunmalıdır”.



Müzakirələrdə çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, işğaldan əvvəl Qarabağda mövcud olan 936 yaşayış məntəqəsinin gələcəkdə 316-ya endirilməsi nəzərdə tutulur.

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

TƏLƏBAT ARTIR, QİYMƏT YÜKSƏLİR

Rəsmi məlumatlara görə, hibrid və elektromobillərin ölkəyə idxal qiymətində artım mövcuddur. Ekspertlər ehtiyat edirlər ki, bu, son nəticədə satışda olan avtomobillərin qiymətinə də təsir edə bilər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Dövlət Gömrük Komitəsi xəbər verir ki, 2023-cü ilin yanvar-oktyabr ayları ərzində bir ədəd elektromobilin idxal qiyməti təxminən 40 min 536 dollar təşkil edib. Bu göstərici 2022-ci ilin eyni dövründə 34 min 637 dollara bərabər olub. Beləliklə, qiymətlər 5 min 899 dollar və ya 17 faiz bahalaşıb. Bir ədəd hibrid avtomobilin idxal qiyməti isə təxminən 24 min 771 dollar olub. 2022-ci ilin eyni dövründə isə idxal qiyməti 12 min 257 dollar ətrafında dəyişib. Burada isə qiymətlərdə 12 min 514 dollar və ya iki dəfə artım baş verib. Göründüyü kimi, hibrid və elektromobillərin idxal qiymətində nəzərəçarpacaq artım var. Bəs bu artım həmin avtomobillərin satış qiymətinə necə təsir göstərəcək?

ÇİNDƏKİ QİYMƏT ARTIMI MƏZƏNNƏ İLƏ BAĞLIDIR

Qeyd edək ki, Azərbaycana ən çox elektromobil və hibrid avtomobillər Çin və Cənubi Koreyadan gətirilir. Hər avtomobilin öz qiyməti olur. Qiymətin formalaşmasında modelinin də rolu çoxdur. Ən ucuz hibrid avtomobil 17-18 min dollardır. Bahalıların qiyməti də 35 min manatdan başlayır.

Paytaxtdakı avtosalonların təmsilçiləri qeyd edirlər ki, hibrid və elektromobillərin satış qiymətlərində cüzi də olsa artım mövcuddur. Çində hazırda qiymətlərdə müşahidə olunan bahalaşma məzənnə ilə bağlıdır. Dollar ucuzlaşdığı üçün avtomobillərin qiyməti qalxıb.

"ÇİNDƏKİ DAŞINMA QİYMƏTLƏRİNƏ BAXSAQ..."

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının direktoru Eyyub Əliyev isə bildirdi ki, dünyada daşınma xərcləri gündən-günə qalxır: "Xərclərin qalxması avtomobillərin qiymətinə ən böyük təsir edən səbəblərdən biridir. Ölkəmizə avtomobillərin əksəriyyəti Çindən gəlir. Hətta elektromobillərdən qeyri-rəsmi yolla gələnlərin də çoxu Çin istehsalıdır. Çindəki daşınma qiymətlərinə baxsaq, görərik ki, artım mövcuddur. Bu da ölkəmizdəki avtomobillərin də qiymətinə təsir edir".



Eyyub Əliyev

QİYMƏTİN QALXMASI TƏLƏBAT MƏSƏLƏSİDİR

E.Əliyevin sözlərinə görə, qiymətlərdəki bu bahalaşma, bu avtomobillərə tələbat azalmayacaq: "Bütün dünya elektromobil və hibrid avtomobillərə keçir. Onların qiymətinin qalxması tələbat məsələsidir. Müəyyən bir dönəmdən sonra istehsalçı zavodlar tələbatın çoxluğunu nəzərə alıb qiymətləri qaldıra bilərlər".

Ekspertin qənaətincə, qiymət artımını şərtləndirən digər bir amil Azərbaycanda bu avtomobillərin şarj alətlərinin quraşdırılması prosesinin sürətlə aparılmasıdır: "Artıq regionlarda da şarj məntəqələrinin quraşdırılması ilə bağlı işlərə start verilib. Paytaxtda isə bununla bağlı heç bir problem yoxdur".


MARJASINDAN KEÇİR, AMMA AVTOMOBİLİN QİYMƏTİNİ QALDIRMIR

Müsahibimiz qeyd etdi ki, rəsmi dilerlər qiymətləri dəyişmir: "Amma ölkəmizdəki son 2-3 ilin qiymətlərinə nəzər yetirdikdə görürük ki, daşınma xərcləri nə qədər artsa da, istehsalçı zavodlar avtomobillərin qiymətini yüksəltsə də, rəsmi salonlar və dilerlər avtomobillərin qiymətini stabil saxlamağa maksimum dərəcədə çalışırlar. Hətta elə dilerlər var ki, 2020-ci ildəki qiymətə satır. Marjasından keçir, amma avtomobilin qiymətini qaldırmır".



ARTIQ DAHA BAHALI AVTOMOBİLLƏR GƏTİRİLİR

İqtisadçı Rəşad Həsənov bildirdi ki, Dövlət Gömrük Komitəsinin verdiyi məlumatlar əsasında müvafiq qənaətə gəlinməsi doğru deyil: "Elektrik və hibrid avtomobillərin markalarından, növündən, ilin dən asılı olaraq qiymətləri fərqlənir. Bu baxımdan əsas məsələ ölkəyə hansı növ və hansı illərdə istehsal olunmuş avtomobillərin idxalıdır. Əvvəlki illərdə ölkəyə daha çox işlənmiş avtomobillər gətirilirdi. Amma son vergi güzəştləri və s. məsələlər daha yeni avtomobillərin gətirilməsinə səbəb oldu. Güzəştlərdən sonra daha imkanlı insanlar bu sahəyə meyl edir. Bu da daha bahalı elektromobil və hibrid avtomobillərin ölkəyə idxalı ilə nəti-cələnir. Beləliklə, orta qiymət göstəriciləri də artır".



BÖYÜK ŞİRKƏTLƏR DƏ BU AVTOMOBİLLƏRİ İSTEHSAL EDİR

Ekspertin fikrincə, dünya bazarında elektromobillərin, hibridlərin qiymətləri ucuzlaşır: "Texnologiyanın inkişafı və seriyalı istehsalın artması, həmçinin bazarda rəqiblərin çoxalması dünya bazarında qiymətlərin ucuzlaşmasına gətirib çıxarır. Böyük avtomobil korporasiyalarının əksəriyyəti artıq kütləvi şəkildə elektrik avtomobillərinin istehsalına keçiblər. Ölkəyə gətirilən avtomobil bahalı və daha təminatlı, mürəkkəb kombinasiyalıdırsa, onların bazarda satış qiymətləri daha yüksək olacaq".

BİZDƏ DƏ BELƏ İŞLƏR GÖRÜLƏRSƏ...

R.Həsənovun sözlərinə görə, bir sıra ölkələr bu avtomobillərə marağın azalmaması üçün əlavə tədbirlər görürlər: "Məsələn, faizsiz kreditlərin verilməsi, mövcud avtomobillərin utilizasiyası, avtomobil dəyərinin bir hissəsinin, hətta bəzi ölkələrdə 50 faizinin subsidiyalaşdırılması, ödənişsiz parkinq və şarj xidmətləri ilə təmin etmək və sair istiqamətlərdə təşəbbüslər ortaya qoyurlar. Bizdə də belə işlər görülərsə, düşünürəm ki, bu, avtoparkımızın strukturunun elektrik mühərrikli avtomobillərə doğru sürətlə dəyişməsinə gətirib çıxarar. Bu, eyni zamanda dövrün çağırışı, ailə büdcəsinin səmərəli istifadəsi aspektindən də çox vacibdir".



Rəşad Həsənov

İNDİ ONUN SƏSİNDƏN YOXDUR...

Martın 22-də görkəmli xanəndə Rübabə Muradovanın doğum günüdür. İndi onunla həmyaşıd olan, səhnəni bölüşən, konsertlərini müşayiət edən sənət yoldaşları, səhnədə ifasını canlı izləyən tamaşaçılar çox deyil. Amma hamı onu böyük sənətkar kimi xatırlayır....



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Bəstəkarlar hamısı istəyirdilər ki, onların mahnısını Rübabə Muradova oxusun. O isə hər mahnını bəyənməzdi, alardı, səsinə düşəni, ürəyinə yatanı seçib oxuyardı".

Martın 22-də doğum günüdür görkəmli xanəndə Rübabə Muradovanın. İndi onunla həmyaşıd olan, səhnəni bölüşən, konsertlərini müşayiət edən sənət yoldaşları, səhnədə ifasını canlı izləyən tamaşaçılar çox deyil.

"ONLAR SƏNƏTDƏ SÖZLƏRİNİ DEYİB GETDİLƏR"

Tarzən, Xalq artisti Vamiq Məmmədəliyev 1961-ci ildə Rübabə Muradovanın Opera və Balet Teatrında oynadığı "Leyli və Məcnun" operasının tamaşaçısı olub: "Mən "Leyli və Məcnun" operasını zaldan böyük məhəbbətlə izlədim. Rübabə Muradova səhnədə Qulu Əsgərovla oynayırdı. Həmin tamaşalar zamanı Opera Teatrı ağzına qədər dolu olurdu. Onlar bir neçə il bu tamaşanı eyni anşlaqla oynadılar. O zaman 3-4 məşhur qadın xanəndə vardı. Onlar o dövrün ən yaxşı oxuyanları idilər. İndi o səslərdən yoxdur və bir daha olmayacaq. Onlar sənətdə sözlərini deyib getdilər..."

"DOLDUR PİYALƏMİ ARAZDAN MƏNİM"

Xalq artisti, mahir tar ifaçısı Ağasəlim Abdullayev xatırlayır: "Rübabə xanımla 1969-cu ildə Baba Salahovun rəhbərlik etdiyi televiziya və radionun Xalq Çalğı Alətləri Ansamblında tanış olmuşam. O zaman məni həmin ansambla konsertmeyster kimi dəvət etmişdilər. Bizim məşqlərimizə çox müğənni gəlirdi. Onlardan biri də Baba Salahovun ən sevimli xanəndəsi Rübabə Muradova idi. Baba Salahov dünyasını dəyişəndən sonra da Rübabə Muradova ansamblı tərk etmədi. Baba müəllimin ölümündən sonra – 1981-ci ildə ansamblın bədii rəhbərliyi mənə həvalə edildi. Baba müəllimdən sonra mən Rübabə xanımın bizim ansambla nə qədər sədaqətli olduğunun şahidi oldum. O, çox sədaqətli qadın idi. Mənim rəhbərliyim altında olanda da ansamblla çalışdı. Baba müəllimdən 7-8 ay sonra Rübabə xanım da dünyasını dəyişdi". A.Abdullayev xanəndə ilə "Humayun" dəstgahını yazdığını xatırlayır: "Hazırda həmin dəstgah Qızıl Fondda qorunur. Sonra da biz Rübabə xanımla bir çox mahnılar yazdıq. Bəstəkarlar hamısı istəyirdilər ki, onların mahnısını Rübabə Muradova oxusun. O isə hər mahnını bəyənməzdi, alardı, səsinə düşəni, ürəyinə yatanı oxuyardı. İndi o mahnıların hamısı Qızıl Fondda və Dövlət Səs yazıları Arxivində saxlanılır".

Tarzən Rübabə xanımla el şənliklərinə getdiyini də xatırlayır: "Münasibətimiz o qədər yaxşı idi ki, el şənliklərinə də birlikdə gedirdik. Bir dəfə Lənkərana toya getdik. Rübabə xanımın toyda oxumağa ehtiyacı yox idi, amma camaatın içərisində görünmək istəyirdi. İnanın, toyda stadionda olan qədər insan vardı. İnsanlar elə bil nümayişə gəlmişdilər. O zaman hər oxuyanı toylara aparmırdılar. Rübabə xanımın evində də çox məşq etmişik. Onunla radio üçün "Mirzə Hüseyn" segahını yazdıq. Rübabə xanımla qastrollara, konsertlərə getmişik. Həbsxanalarda konsertlər verirdik. O heç vaxt belə tədbirlərdən imtina etməzdi. "Dustaqlar üçün oxumaq savabdır" deyirdi". Tarzən Rübabə xanımın içindəki Ərdəbil nisgilini də yaxşı xatırlayır: "Rübabə xanım əslən cənubi azərbaycanlı idi. Onun içində nisgil vardı. Muğam üstündə "Doldur piyaləmi Arazdan mənim", - deyə oxuyur və gözləri dolurdu". A.Abdullayev xanəndənin milli Opera Teatrı tarixində zəngin irs qoyduğunu deyir: "Rübabə xanım "Leyli və Məcnun"u Qulu Əsgərovla, daha sonra Arif Babayevlə oynayıb. Onun bu operada tərəf-müqabilləri çox olub. Çünki o səhnəmizin əvəzolunmaz Leylisi idi".

Tarzən Rübabə xanımın son günlərini də xatırlayır: "Rübabə xanım xəstələnəndə ona baş çəkməyə getdim. 5 saylı xəstəxanada yatırdı. Onu görəndə elə bil dilim tutuldu. Çox arıqlamışdı. Bir müddət sonra da dünyasını dəyişdi..."



O, "HUMAYUN"U ELƏ OXUYUB Kİ...

"Heç bilməzdim, nə vaxtsa Rübabə xanım haqqında xatirə danışacağam", - deyə Əməkdar artist Mirnazim Əsədullayev xatırlayır: "Mən kamança ifaçısı Baba Salahovun ansamblına gələndə 1969-cu il idi. O vaxt Rübabə xanım da ansamblla məşq etməyə gəlirdi. Tanışlığımız ansamblda yarandı. Onunla ilk konsertim 1970-ci ilin may ayında oldu. Rübabə xanımla ən böyük işimiz "Humayun" dəstgahını yazmaq oldu. Əlibaba Məmmədov dedi ki, "Humayun"u indiyə qədər belə oxuyan olmayıb. O lent yazıları yadigar qaldı.... Rübabə xanım əlçatmaz sənətkar idi. Leylini onun kimi oynayan yox idi. Bir az kövrək insan idi. Əslən Ərdəbildən idi, elə bu həsrətlə də dünyadan köçdü. Sovet dövrü olduğu üçün getməyə qoymurdular. Onun səsində bu nisgil, bu yanğı həmişə hiss olunurdu. O vaxt "Qubanov" küçəsində (indiki Zivər bəy Əhmədbəyov) "Demokratların klubu" vardı, orada məşqlər edirdik. Məmməd Salmanov da əslən cənubi azərbaycanlı olduğu üçün oraya gəlirdi. Biz hər il orada iranlıların gününü qeyd edirdik. Bəstəkar Bəxtiyar Kərimov da məşqlərə gəlirdi. Bir gün "Rübabə xanım üçün Şəhriyarın sözlərinə "Heydərbabaya salam" mahnısını yazmışam" dedi. Bu mahnını məşq etdik, gözəl də alındı. Rübabə xanım bütün konsertlərdə bu mahnını elə oxuyurdu ki, bütün zaldakılar ağlayırdı. Biz onunla qastrol səfərlərinə gedirdik. O vaxt rayonlarda "Məhsul bayramı" keçirilirdi. Camaat onu o qədər çox istəyirdi ki..."

İfaçı Rübabə xanımın xəstə olduğu günlərini kədərlə xatırlayır: "Mən bir musiqiçi kimi yox, bir oğul kimi ona qulluq elədim. Bütün konsertlərdə onun yanında idim. Xəstələnəndə ona baş çəkməyə getdik. "Qoy ayağa durum, o qədər səs yazıları edəcəm ki, qoy xalımız üçün qalsın", - dedi. Amma daha yataqdan qalxa bilmədi..."

Vamiq Məmmədəliyev — Mirnazim Əsədullayev — Ağasəlim Abdullayev

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
16 MART ŞƏNBƏ 2024
www.kaspi.az



"Qarabağ" UEFA Avropa Liqasının 1/8 finalında "Bayer"ə məğlub olaraq mübarizəni dayandırdı. Komandamız bu dəfə də layiqli oyun göstərdi. Almanlar ancaq oyuna əlavə edilmiş dəqiqələrdə qələbəni təmin edə bildilər.

BUNU BİR DAHA EDİN!

Avropadakı qürurumuz Ağdamın "Qarabağ" klubu UEFA Avropa Liqasının 1/8 finalında Almaniyada Bundesliqanın lideri "Bayer"in qonağı olub. Cavab qarşılaşmasının kifayət qədər çətin keçəcəyi məlum idi. Oyuna ciddi təzyiqlə başlayan "Bayer" erkən qol vura bilməyincə, "Qarabağ" oyunu sabitləşdirməyə, özü də təhlükəli hücumlar etməyə başladı. İkinci hissənin əvvəlində komandamız hesabı da açdı. Amma təəssüf ki, bunun ardınca müdafiəçimiz Elvin Cəfərquliyev mübahisəli qırmızı vərəqə ilə meydandan qovuldu. Meydanda azlıqda qaldıqdan sonra da "Qarabağ" qol vura bildi və 2:0 önə keçdi. Amma almanlar təslim olmadılar. İkinci qoldan beş dəqiqə sonra hesab arasındakı fərqi azaldan "Bayer" 90+3-cü dəqiqədə hesabı bərabərləşdirə bildi. Əlavə olunmuş dəqiqələrdə rəqib üçüncü qolu da vuraraq matçı əlavə vaxta daşımadan növbəti mərhələyə vəsiqəni təmin etdi.

AVROKUBOK MÖVSÜMÜNÜN ƏN BÖYÜK SENSASİYASI

Beləliklə, komandamız qısa müddət ərzində iki dəfə bu mövsüm Avropada məğlub olmayan yeganə komanda olan "Bayer"i məyus etməyə yaxın olsa da, bunu bacarmadı. Amma bunun özü belə böyük qəhrəmanlıq və bəlkə bu avrokubok mövsümünün ən böyük sensasiyasıdır. "Qarabağ"ı dayandıran komanda Almaniyada heç bir komandanın dayandıra bilmədiyi, bütün turnirlər daxil 37 oyundur uduzmayan "Bayer" idi.

BU NƏTİCƏLƏR FUTBOL TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILACAQ

İstənilən halda, bu il "Qarabağ" Avropada tarixinin ən uğurlu mövsümlərindən birini keçirdi. Mövsümün əvvəlində heyətdəki dəyişikliklərlə əlaqədar çətinliklər yaşayan, Çempionlar Liqasında ilkin mərhələdə mübarizəni dayandıran, ciddi tənqidlərlə üzləşən ağdamlılar, sonradan toparlanaraq Avropa Liqasında xariqələr yaratdı. Qurban Qurbanovun komandasının bu il Avropa Liqasında əldə etdiyi nəticələr futbol tariximizə qızıl hərflərlə yazılacaq. Komanda indiki heyəti qoruya bilsə, gələn il Avropada yenə də adından söz etdirə bilər.

Yeri gəlmişkən, "Bayer" klubu cavab oyunundan sonra özünün sosial şəbəkə hesabında "Qarabağ"la bağlı səmimi paylaşım edib: "Komandanıza böyük hörmət bəsləyirik! Bizə dörd əla oyun yaşatdınız, amma xahiş edirik, bunu bir daha etməyin!"

Biz isə Qurban Qurbanova, onun komandasına müraciət edərək deyirik: Bunu bir daha edin! Bu cür möcüzələri bizə təkrar-təkrar yaşadın. Azərbaycanın adını Avropa futbolunun tarixinə yazın.

QURBAN QURBANOV: "GƏLƏCƏKDƏ NƏTİCƏLƏRİ YAXŞILAŞDIRMAĞA ÇALIŞACAĞIQ"

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov oyundan sonra keçirilən mətbuat konfransında məyusluğunu ifadə edib: "Şansımız var idi. Daha çox bu mərhələlərə çıxmalıyıq, təcrübə toplamalıyıq. Bu cür rəqiblərə qarşı fiziki cəhətdən hazır olmalıyıq. Azərbaycan çempionatının, klubumuzun yaşı azdır. Bir neçə klubumuz bu kimi turnirlərdə çıxış etməlidir. Görünür ki, üzərimizdə çox işləməliyik". Mütəxəssis bu cür oyunların təcrübə baxımından gələcəkdə komandaya fayda verəcəyini söyləyib: "Belə oyunlar mənə və oyunçulara təcrübə verir. Futbolun hansı səviyyədə olduğunu gördük. Böyük oyunlarda bəzən elə elementlər olur ki, matçın taleyini həll edir. "Bayer"ə qalib gəlməyə 2 qol bəs etmədi. Ümumən təcrübə qazandıq. Bəzən oyunçuya təzyiq olmayanda böyük futbol haqda düşünmür. Amma bu gün dinamikanı hiss etdik və necə yaxşılaşdırmalıyıq, onu öyrəndik". Q.Qurbanov azarkeşlərin üzülməsinə görə məyus olduğunu bildirib: "İşimizdə məsuliyyətli olmalıyıq. Məğlub olduq, amma azarkeşlərə güvən vermişik. Gələcəkdə nəticələri yaxşılaşdırmağa çalışacağıq".

BEYNƏLXALQ YARIŞIN QALİBİ OLDULAR



8-11 mart tarixində Türkiyənin Van şəhərində Dünya BUDO Döyüş Sənəti Federasiyası tərəfindən açıq qitələrarası BUDO döyüş sənəti çempionatı keçirilib. Müxtəlif ölkələrdən yarışçıların iştirak etdiyi çempionatda Azərbaycanı Abşeron rayonu Mehdiabad qəsəbəsinin 1 saylı tam orta məktəbinin şagirdləri layiqincə təmsil ediblər. Öz çəkilərində rəqibləri üzərində inamlı qələbə qazanan Mahir Sadıqov, Əli Əhmədli və Həbib Qafarlı ayrı-ayrılıqda 1-ci yeri tutaraq qızıl medala və çempionluq diplomuna layiq görülüblər.

Qeyd edək ki, Mahir Sadıqov, Əli Əhmədli, Həbib Qafarlı Mehdiabad qəsəbə 1 saylı tam orta məktəbin 5A, 7A və 11Ç sinif şagirdləridirlər.